# BİNALAR TEZ QOCALMAYACAQ

Artıq çoxmərtəbəli binaların istismar müddəti 100 il olacaq. Bu, müasir texnologiyalar, keyfiyyətli materialların tətbiqi ilə mümkündür.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyası "Yüksək binalar və komplekslər. Layihələndirmə normaları"nı təsdiqləyib. Qərara əsasən, binaların layihələndirilməsi layihə tapşırığı üzrə yerinə yetirilməlidir.

R.Osmanlının fikrincə, əvvəlki dövrdə inşa olunan binaların bir çoxunun istismar müddəti artıq başa çatıb: "Onlarda müəyyən bərkitmə işlərinin aparılmasına baxmayaraq, faktiki olaraq istismar müddətini başa vurublar".

SƏHİFƏ 13-də



'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

18 OKTYABR ŞƏNBƏ 2025 № 40 (4241) Qiyməti - 60 qəpik www.kaspi.az





## 14 İLDƏ VATİKANA ALTINCI SƏFƏR

Heydər Əliyev Fondu Vatikanda genişmiqyaslı bərpa işlərini maliyyələşdirməklə dünya mədəni irsinin qorunmasına mühüm töhfə verir. Bu təşəbbüslər səmərəli əməkdaşlıq nümunəsi kimi yüksək qiymətləndirilir.

SƏHİFƏ 2-də



## BAZARLARDA UÇOT DÖVRÜ BAŞLAYIR

Bazarlarda fəaliyyət göstərən təsərrüfat subyektləri ilə bağlı yeni tələblər qüvvəyə minib. Sahibkarlar bu yenilikləri həm hüquqi, həm də inzibatçılıq baxımından narahatlıqla qarşılayırlar.

SƏHİFƏ 11-də



## MƏDƏNİ FENOMENƏ ÇEVRİLƏN ŞƏHƏR

Kristianiya orta əsr kəndini xatırladır. Burada avtomobillərin hərəkəti qadağandır. Keçən əsrin 70-ci illərinin əvvəllərində hippilər, radikallar, kiçik cinayətkarlar, şəhər psixləri və digər şübhəli şəxslərin buraya axını başlayıb.

SƏHİFƏ 14-də

### BİR AY ƏRZİNDƏ DÖRD FƏRQLİ PLATFORMADA İŞTİRAK

# BEYNƏLXALQ TƏRƏFDAŞLIQDA YENİ ÜFÜQLƏR



Bu gün Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə həm Qərb, həm də Şərq ölkələri ilə münasibətlərini bərabərlik, qarşılıqlı hörmət və praqmatizm prinsipləri əsasında qurub. Bakı dünya birliyi tərəfindən regional güc, etibarlı tərəfdaş kimi qəbul edilir.

**ŞARM ƏL-ŞEYXDƏ TARİXİ NAİLİYYƏT**

Yaxın Şərq Sülh Sammitində atəşkəs qərarı ilə tarixi nailiyyət əldə edildi. Bu tarixi anlara şahidlik edən və bilavasitə sülh prosesinin iştirakçı olan azsaylı dövlət başçıları arasında Prezident İlham Əliyevin də olması xüsusi vurğulanmalıdır.

**TƏQDİR EDİLƏN YAXIN ŞƏRQ SİYASƏTİ**

Suriyanın yenidən dirçəldilməsində Azərbaycanın yardımları beynəlxalq birliyin diqqətindədir. Suriyanın enerji təhlükəsizliyinin təmini üçün Bakının atdığı addımlar həm Qərb dövlətləri, həm də İslam dünyası tərəfindən təqdirlə qarşılanır.

SƏHİFƏ 3-də

### "Uğurlarımı Şirməmməd müəllimə borcluyam"

# "OXUMAQDAN HEÇ VAXT USANMAYIN"

"Məktəbdə" layihəsinin qonağı olan Bakı Dövlət Universitetinin Milli mətbuat tarixi kafedrasının müdiri, professor Cahangir Məmmədli: "Kitab bilik, düşüncə və təcrübənin əsas mənbəyidir. Oxumaq insanı həm zənginləşdirir, həm də gələcəyə hazır edir. Telefon heç vaxt kitabın yerini verə bilməz. Sizin inkişafınız kitabdadır. Oxumaqdan, kitabdan usanmayın".



SƏHİFƏ 6-da



## İLHAM ƏLİYEVİN DİPLOMATİK ZƏFƏRLƏRİ

Son vaxtlar əvvəlki dövrlərdə ikitərəfli münasibətlərdə müəyyən gərginliklər yaşadığımız bir çox dövlətlərlə - İran, Rusiya, Fransa ilə qarşılıqlı siyasi əlaqələrin normallaşdırıldığını müşahidə etməkdəyik.

SƏHİFƏ 4-də



## "BİZ VƏTƏNİMİZİ – EVİMİZİ QORUYURDUQ"

C.Aşirovun Vətənə xidmətləri yüksək qiymətləndirilib. O, "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən müharibəsi iştirakçısı" medallarına layiq görülüb.

SƏHİFƏ 12-də



## "MƏNFİ ROLLAR MƏNƏ DAHA DOĞMADIR"

"Bəziləri birdən-birə hər şeyi dəyişmək istəyir. Elə bil on mərtəbəni bir nəfəsə qalxmaq istəyirlər. Üslub dəyişiklikləri etməyə can atırlar. Amma aktyor da, tamaşaçı da bu cür radikal dəyişikliklərə həmişə hazır olmur".

SƏHİFƏ 15-də



SOCAR şəhid və qazi övladları üçün tədbir keçirib

SƏHİFƏ 10-da



İki əsrdir həllini tapmayan gərginlik

SƏHİFƏ 5-də



Fermerlər işçi tapa bilmirlər

SƏHİFƏ 7-də



İqlim risklərinin miqyasında kəskin artım

SƏHİFƏ 10-da



Şahmatçılarımızın gümüşə aparan yolu

SƏHİFƏ 16-da

# 14 İLDƏ VATİKANA ALTINCI SƏFƏR



**Heydər Əliyev Fondu Vatikanda genişmiqyaslı bərpa işlərini fəal şəkildə maliyyələşdirməklə dünya mədəni irsinin qorunmasına mühüm töhfə verir. Bu təşəbbüslər Müqəddəs Taxt-Tac tərəfindən səmərəli əməkdaşlıq nümunəsi kimi yüksək qiymətləndirilir.**

F.ABASOĞLU

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Müqəddəs Taxt-Taca – Vatikana rəsmi səfər edib. Səfər çərçivəsində Birinci vitse-prezident və ailə üzvləri Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Kommodilla katakombalarının bərpası layihəsinin açılış mərasimində iştirak edib və həyata keçirilmiş bərpa işləri ilə tanış olublar.

Vatikanın Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının prezidenti Monsenyor Paskuale Yakobone Birinci vitse-prezident Mehriban Əliyevanın uzun illərdir başçılıq etdiyi komissiya ilə çox yaxından və səmərəli əməkdaşlıq etdiyini bildirib. O, katakombalarının açılışında iştirakına görə Birinci vitse-prezident Mehriban Əliyevaya dərin təşəkkürünü ifadə edib.

Komissiyanın prezidenti Müqəddəs Marçelino və Pietro, həmçinin Müqəddəs Sebastian katakombalarının bərpasına Heydər Əliyev Fondunun səyləri nəticəsində nail olduqlarını vurğulayıb.



### UZUN İLLƏR ƏRZİNDƏ FORMALAŞAN MÜNASİBƏTLƏR

Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının sabiq prezidenti kardinal Canfranko Ravazi Birinci vitse-prezident Mehriban Əliyeva ilə səmimi dostluq və qarşılıqlı hörmət münasibətlərindən söz açaraq deyib: “Bu münasibətlər uzun illər ərzində formalaşıb, şəxsən mənə böyük və dərin təəssürat bağışlayıb. Təşkil etdiyimiz səfərlərdə Birinci vitse-prezidentin arxeologiya sahəsinə xüsusi bağlılığının şahidi olduq. Çünki səfərlər çərçivəsində bərpa olunan yerləri şəxsən özü ziyarət edirdi. Əlbəttə ki, onun dəstəyi sayəsində, Heydər Əliyev Fondunun göstərdiyi yardım nəticəsində bu gün katakombaların açılışında əməkdaşlığımızın yeni bir səhifəsini yazırıq. Görülmüş işlərə görə Birinci vitse-prezidentə dərin təşəkkürümü bildirirəm”.

## “BURAYA HƏR GƏLİŞİMİZDƏ BİZİM DOSTLARIMIZIN SAYI ARTIR”

Mehriban Əliyeva Müqəddəs Taxt-Taca növbəti səfərindən böyük şərəf hissi duyduğunu bildirib. Heydər Əliyev Fondunun prezidenti bunun son 14 ildə Vatikana altıncı səfəri olduğunu diqqətə çatdırıb. “Mən çox şadam ki, biz bu illər ərzində çox gözəl əməkdaşlıq yaratmışıq. Buraya hər gəlişimizdə bizim dostlarımızın sayı artır”, - deyə o qeyd edib. Azərbaycanın əsrlər boyu müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələrinin birgə sülh, qarşılıqlı hörmət, tolerantlıq və harmoniya şəraitində yaşayan bir məkan olduğunu vurğulayan Mehriban Əliyeva deyib: “Bu gün bu prinsiplər həm bizim dövlət siyasətimizin əsasıdır, həm də həyat tərzimizdir. Əminəm ki, bugünkü mürəkkəb dünyada dövlətlərimiz arasında genişlənən əməkdaşlıq, dostluq əlaqələri bir nümunədir”.

Sonra Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Müqəddəs Kommodilla katakombalarının açılışı olub. Qeyd edək ki, Heydər Əliyev Fondu Vatikanda genişmiqyaslı bərpa işlərini fəal şəkildə maliyyələşdirməklə dünya mədəni irsinin qorunmasına mühüm töhfə verir. Bu təşəbbüslər Müqəddəs Taxt-Tac tərəfindən səmərəli əməkdaşlıq və mədəniyyətlərarası əlaqələrin möhkəmləndirilməsi nümunəsi kimi yüksək qiymətləndirilir.

## ROMA PAPASI AZƏRBAYCANA DƏVƏT EDİLDİ

Birinci vitse-prezident Mehriban Əliyeva Müqəddəs Taxt-Taca – Vatikana rəsmi səfəri çərçivəsində oktyabrın 17-də Roma Papası XIV Leo ilə görüşüb.

Roma Papası XIV Leo tərəfindən qəbul olunduğuna görə təşəkkürünü bildirən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Vatikan ilə Azərbaycan arasında son illərdə münasibətlərin, ikitərəfli əlaqələrin xeyli dərəcədə inkişaf etdiyini vurğulayıb. Birinci vitse-prezident son illər ərzində Heydər Əliyev Fondunun bərpa işlərində, həmçinin elmi araşdırmalarda, mədəni mübadilələrdə Müqəddəs Taxt-Tacla bir çox işlər gördüyünü diqqətə çatdırıb.

Birinci vitse-prezident Heydər Əliyev Fondu ilə Vatikan arasında imzalanmış sazişlərə əsasən bəzi layihələrin uğurla başa çatmasından sonra digərlərinin icrasına başlanıldığını vurğulayıb.

Mehriban Əliyeva bundan sonra da Heydər Əliyev Fondunun yeni təşəbbüslərlə çıxış edərək Müqəddəs Taxt-Tacla əməkdaşlığını genişləndirəcəyini deyib.

Roma Papası XIV Leo Vatikan dövləti ilə Azərbaycan Respublikası arasında ikitərəfli əməkdaşlığın uzun tarixə malik olduğunu diqqətə çatdırıb. Roma Papası bir neçə il əvvəl Mehriban xanımın irəli sürdüyü təşəbbüslər sayəsində münasibətlərin xeyli inkişaf etdiyini deyərək, Birinci vitse-prezidentə təşəkkürünü bildirib. XIV Leo bu əməkdaşlığın dinlərarası və sivilizasiyalararası dialoqa çox böyük təkan verdiyini, Azərbaycanın da bu baxımdan dünya miqyasında ilk sıralarda yer aldığını qeyd edib.

Müqəddəs Taxt-Tacın rəhbəri Vatikanın Azərbaycanla bu layihələri davam etdirməkdə maraqlı olduğunu deyərək, ikinci Katolik Kilsənin tikintisinə ayrılmış torpaq sahəsinə görə təşəkkürlərini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə çatdırmağı xahiş edib. Roma Papası Heydər Əliyev Fonduna görülən işlərə görə minnətdarlığını ifadə edib.

Birinci vitse-prezident Mehriban Əliyeva Müqəddəs Taxt-Tacın rəhbərinə minnətdarlığını bildirərək, Roma Papasını Azərbaycana səfərə dəvət edib.

### KARDİNAL CEYMS HARVİ İLƏ GÖRÜŞ

Birinci vitse-prezident rəsmi səfəri çərçivəsində Müqəddəs Pavel Bazilikasının baş keşişi kardinal Ceyms Harvi ilə görüşüb. Müqəddəs Kommodilla katakombalarının açılışında birgə iştirak etdiklərini deyən Mehriban Əliyeva bunun Heydər Əliyev Fondunun böyük layihələrindən biri olduğunu diqqətə çatdıraraq deyib: “Roma elə şəhərdir ki, həm yerin altı, həm də üstü demək olar səma altında açıq muzeydir. Bizim fəaliyyətimiz elə qurulub ki, bəzi layihələr sona çatan kimi yeni layihələrə start veririk. Bu, çox davamlı əməkdaşlıqdır və mən onu yüksək dəyərləndirirəm”.

# BEYNƏLXALQ TƏRƏFDAŞLIQDA YENİ ÜFÜQLƏR




**Bu gün Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə həm Qərb, həm də Şərq ölkələri ilə münasibətlərini bərabərlik, qarşılıqlı hörmət və praqmatizm prinsipləri əsasında qurub. Bakı dünya birliyi tərəfindən regional güc, etibarlı tərəfdaş kimi qəbul edilir.**



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Şarm əl-Şeyxdə təşkil edilmiş Yaxın Şərq Sülh Sammitində münaqişə tərəfləri arasında atəşkəsə nail olunmaqla tarixi nailiyyət əldə edildi. Bu tarixi anlara şahidlik edən və bilavasitə sülh prosesinin iştirakçı olan azsaylı dövlət başçıları arasında Azərbaycan Prezidenti İlham Əliyevin də olması xüsusi vurğulanmalıdır.

### AZƏRBAYCANIN ARTAN ROLU

Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Yaxın Şərq Sülh Sammitində iştirakı həm beynəlxalq siyasətdə, həm də qlobal təhlükəsizlik sistemində Azərbaycanın artan rolunun göstəricisi kimi dəyərləndirilir. Bu gün Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə həm Qərb, həm də Şərq ölkələri ilə münasibətlərini bərabərlik, qarşılıqlı hörmət və praqmatizm prinsipləri əsasında qurub. Bunun nəticəsində Bakı dünya birliyi tərəfindən regional güc, beynəlxalq dialoq və əməkdaşlıq platformalarında etibarlı tərəfdaş, həmçinin güclü siyasi-iqtisadi aktor olaraq qəbul edilir. Yaxın Şərq Sülh Sammitində iştirak da bunun təsdiqidir.

Son illərdə ölkəmiz dünyada sülh və münaqişə tərəfləri arasında dialoq platformasının təşkilində etibarlı məkan kimi tanınır. İsrail-Suriya, İsrail-Türkiyə danışıqlarında vasitəçilik missiyasının rəsmi Bakı tərəfindən təşkil olunması, o cümlədən Təl-Əvivlə dostluq münasibətlərinin mövcudluğuna baxmayaraq, beynəlxalq hüquq əsasında Fələstin məsələsində Azərbaycanın ikidövlətli həll variantını dəstəkləməsi Prezident İlham Əliyevin Yaxın Şərq siyasətinin praqmatizm və qarşılıqlı hörmətə əsaslandığının göstəricisidir. Məhz bu yanaşma rəsmi Bakının Donald Trampın sülh təşəbbüsündə özünəməxsus yer almasını şərtləndirir.

### PRAQMATİZMƏ ƏSASLANAN YAXIN ŞƏRQ SİYASƏTİ

Yaxın keçmişdə vətəndaş müharibəsi nəticəsində infrastrukturu tamamilə dağıdılan Suriyanın yenidən dirçəldilməsində Azərbaycanın yardımları da beynəlxalq birliyin diqqətindədir. Suriyanın enerji təhlükəsizliyinin təmini üçün Bakının atdığı addımlar həm Qərb dövlətləri, həm də İslam dünyası tərəfindən təqdirlə qarşılanır. Bu addımlarla Azərbaycan bir daha münaqişələrin ərazi bütövlüyü, suverenlik prinsipləri əsasında milli maraqlar nəzərə alınmaqla həllində maraqlı olduğunu dünyaya nümayiş etdirir. Rəsmi Bakının təsir coğrafiyasının genişlənməsi, diplomatik fəallığın artması, xüsusilə də böhran yaşanan dövlətlərə öz yardımlarını təklif etməsi Azərbaycanın gücünün və qüdrətinin göstəricisidir. Bununla da rəsmi Bakı sübut edir ki, dialoq təşəbbüskarı, strateji sabitlik mənbəyidir. Yaxın Şərq Sülh Sammiti bir daha göstərdi ki, bu gün Azərbaycan dünyada tək etibarlı enerji tərəfdaşı və sabit tranzit ölkə kimi yox, həm də ortaya qoyduğu siyasi rasionalizmi, sülh təşəbbüsləri və humanizm prinsiplərinə görə təqdir edilir.

## SABİT VƏ DAVAMLI İNKİŞAF MODELİ TƏCRÜBƏSİ

Tarixi qələbəmizdən sonra Azərbaycan 30 illik ağır müharibə şəraitini çox qısa müddətdə uğurla arxada qoymağı bacarıb. Qalib ölkə olmasına baxmayaraq, sülh təşəbbüsünü irəli sürməklə yuxarıda qeyd etdiyimiz prinsiplərə sadiqliyini nümayiş etdirib. Qısa müddət ərzində tamamilə işğaldan azad edilmiş və tamamilə dağıdılmış ərazilərdə həyata keçirilən meqalayihələr, bərpa-quruculuq işləri dünya birliyi tərəfindən çox diqqətlə izlənilir və öyrənilir. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən "Böyük Qayıdış" proqramı, "Ağıllı kənd" və "Yaşıl enerji" konsepsiyaları Azərbaycanın postmünaqişə dövrünün inkişaf modeli kimi qəbul olunur. Bu model özündə iqtisadi dirçəlişi, sosial rifahı, dayanıqlı inkişaf və ölkəmiz üçün ənənəvi olan multikultural dəyərləri ehtiva edir. Bu gün yüz ildən artıq qarşılıqlı toqquşmalar, hərbi qarşıdurmalar, dağıntılar və insan itkiləri meydanına çevrilən Yaxın Şərq üçün ən




vacib olan məqam da məhz belə bir inkişaf modelinə sahib olmaqdır. Bu baxımdan Prezident İlham Əliyevin Yaxın Şərq sülh konfransında iştirakı həm də Azərbaycanın yeni inkişaf modelinin dünya birliyinə təqdimatı kimi dəyərləndirilə bilər. Beynəlxalq aləm ölkəmizin postmünaqişə dövrü təcrübəsindən yararlanmaq niyyətindədir.

### BİR AY ƏRZİNDƏ DÖRD FƏRQLİ PLATFORMADA İŞTİRAK

Bir maraqlı cəhət də odur ki, Prezident İlham Əliyev son bir ayda dörd fərqli coğrafiyada və dörd fərqli platformada şəxsən iştirak edib. Kopenhagendə Avropa Siyasi Birliyinin Sammiti, Qəbələdə Türk Dövlətləri Təşkilatının Zirvə, Düşənbədə MDB Sammiti və nəhayət, Şarm əl-Şeyxdə Yaxın Şərq Sülh Toplantısında iştirak Azərbaycanın diplomatik fəallığının miqyasını ortaya qoyur. Bu platformaların hər birində Azərbaycan liderinə sərgilənən münasibət həm də rəsmi Bakının müstəqil və milli maraqlara əsaslanan siyasətinə ehtiramın göstəricisidir. Müşahidə etdiyimiz bu diplomatik dinamizm heç də təsadüfi sayılmamalıdır. Bu, Azərbaycanın beynəlxalq aləmdə artan rolunun və nüfuzunun göstəricisi, müasir Azərbaycan reallıqlarının dünya birliyi tərəfindən qəbul edilməsi və ehtiramla qarşılanmasının sübutudur.

# İLHAM ƏLİYEVİN DİPLOMATİK ZƏFƏRLƏRİ

Əvvəlki dövrlərdə ikitərəfli münasibətlərdə müəyyən gərginliklər yaşadığımız bir çox dövlətlərlə qarşılıqlı əlaqələrin normallaşdırıldığını müşahidə etməkdəyik. Xüsusi vurğulanmalı məqam ondan ibarətdir ki, normallaşma prosesi ilə bağlı Prezident İlham Əliyevlə görüşmək təşəbbüsü məhz qarşı tərəflərdən gəlib.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az



Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan beynəlxalq səviyyədə diplomatik-siyasi müstəvidə mühüm nailiyyətlər əldə etməkdədir. Əvvəlki dövrlərdə ikitərəfli münasibətlərdə müəyyən gərginliklər yaşadığımız bir çox dövlətlərlə qarşılıqlı əlaqələrin normallaşdırıldığını müşahidə etməkdəyik. Xüsusi vurğulanmalı məqam ondan ibarətdir ki, normallaşma prosesi ilə bağlı Prezident İlham Əliyevlə görüşmək təşəbbüsü məhz qarşı tərəflərdən gəlib. Bu siyahıya biz Fransa, İran, Rusiya, Avropa İttifaqı, ABŞ və digərlərini əlavə edə bilərik.

Qeyd edək ki, Vətən müharibəsindəki tarixi qələbəmizin beşinci ili yaxınlaşır. 44 gün ərzində hərb meydanında 30 illik işğal və separatizm faktına son qoyan Azərbaycan postmünaqişə dövründə diplomatik və siyasi sahədə də ciddi sınaqlarla üz-üzə qaldı. Beş il ərzində Müzəffər Ali Baş Komandan İlham Əliyevin hərb meydanındakı dəmir iradəsi keçən müddət ərzində diplomatik müstəvidə də öz sözünü deməyi bacardı. Tarixi qələbənin yaratdığı reallığı qəbul etmək istəməyən bir sıra dövlətlər artıq rəsmi Bakının praqmatik siyasəti ilə razılaşır. Ölkəmizin milli və suveren maraqlarını nəzərə alırlar. Ortaya qoyulan sülh təşəbbüsləri, iqtisadi inteqrasiya planlarına ciddi dəstək verirlər.

### KOPENHAGENDƏ MAKRON-ƏLİYEV GÖRÜŞÜNÜN NƏTİCƏLƏRİ

Bunun məntiqi nəticəsini biz Prezident İlham Əliyevin də xüsusi olaraq dəvət edildiyi Kopenhagen Zirvəsi və Yaxın Şərq Sülh Sammiti, eləcə də Düşənbədə MDB dövlət başçılarının Zirvə görüşündə müşahidə etdik. Kopenhagen sammitində Fransa Prezidenti Emmanuel Makronla Prezident İlham Əliyev arasında keçirilən görüş Bakı və Paris arasında mühüm müzakirələrin aparılması və münasibətlərin normallaşdırılması istiqamətində qərarların qəbulu ilə yadda qaldı. Dövlət başçıları arasındakı münasibətlərdə müşahidə edilən müsbət auranın Yaxın Şərq Sülh Sammitində də şahidi olduq.

### PARİSLƏ MÜNASİBƏTLƏRDƏ YENİ SƏHİFƏ

İki ölkə arasında münasibətlərdə anlaşılmazlığa səbəb olan məsələlərin artıq geridə qaldığını Prezident İlham Əliyev Fransanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sofi Laqutun etimadnaməsini qəbul edərkən də bildirib. İkitərəfli gündəlikdə yeni dövrün başladığını vurğulayan dövlət başçısı, ilk növbədə, insanlararası və biznes nümayəndələrinin təmaslarının, mədəni, humanitar sahələrdə əməkdaşlığın bərpasının və inkişaf etdirilməsinin önəminə toxunub.

Səfir də öz növbəsində Azərbaycanla Fransa arasında münasibətlərdə yeni səhifənin açıldığını deyərək, əlaqələrimizin inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirib.

Xatırladaq ki, hazırda Fransa və Azərbaycan arasında müxtəlif istiqamətlərdə, xüsusilə də yüksək texnologiyalar və aerokosmik sahələrdə əməkdaşlıqda uğurlu inkişaf müşahidə edilir. Hökumətlərarası Komissiyanın fəaliyyəti də bərpa olunub. Bundan əlavə, biznes nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkili də gündəmdədir.



## İran və Rusiya ilə normallaşan münasibətlər

Düşənbə sammitində Rusiya Prezidenti Vladimir Putinlə azərbaycanlı həmkarı İlham Əliyev arasında reallaşan danışıqlar da iki ölkə münasibətlərində yeni başlanğıc kimi qəbul edilir. Moskva ilə müşahidə olunan gərginliklər də öz yerini yenidən bərabərhüquqlu və qarşılıqlı hörmətə əsaslanan mehriban qonşuluq və əməkdaşlıq münasibətlərinə verib. İsrail-İran müharibəsi və ondan əvvəl Tehranla münasibətlərdəki soyuqluq da keçmişdə qalıb.



Prezident İlham Əliyevin iranlı həmkarı Məsud Pezeşkianla səmimi münasibətləri Tehran-Bakı əlaqələrinin də ruhuna təsir göstərməkdədir. İstər Rusiya, istərsə də İranla dövlətlərarası əlaqələrdə praqmatik yanaşma özünü mühüm üçtərəfli genişmiqyaslı layihələrin reallaşmasında da büruzə verir. Bakıda bu günlərdə təşkil olunan İran-Rusiya-Azərbaycan üçtərəfli görüşü mühüm qərarların qəbulu və icrasının tezləşdirilməsi ilə yadda qaldı.

## Trampın "Siz güclü lidersiniz" dəyərləndirməsi

Bakı-Vaşinqton münasibətlərinin yenidən bir üst səviyyəyə qaldırılması isə rəsmi Bakının usta diplomatik gedişlərinin və böyük dövlətlərlə əməkdaşlıqda zəngin təcrübənin zirvəsi sayıla bilər. Ağ Ev rəhbəri Donald Trampın Prezident İlham Əliyevə xüsusi rəğbəti bu əlaqələri daha davamlı və strateji mahiyyət kəsb edən amil etməkdədir. Dünyanın ən güclü dövlətinin rəhbərinin Prezident İlham Əliyev haqqında hər fürsətdə "Siz güclü lidersiniz" dəyərləndirməsi özü-özlüyündə hər şeyi açıq şəkildə ortaya qoyur. Vaşinqtonda əldə edilən tarixi razılaşmalar, Cənubi Qafqaz üçün sülh gündəliyinin təsdiqlənməsi, həmçinin regional tranzit dəhlizlərinin açılması istiqamətində qəbul edilən qərarların hər biri Prezident İlham Əliyevin və Azərbaycan diplomatiyasının mühüm zəfərləridir.

Beynəlxalq müstəvidə hər bir dövlətin gücü, imkanları onun böyük dövlətlərlə, regional güclərlə mövcud münasibətlərinin səviyyəsi ilə ölçülür. Xüsusilə də bu münasibətlərdə bərabər səviyyəli, qarşılıqlı hörmətə əsaslanan əməkdaşlıq, milli maraqların üstün tutulduğu məqamlara xüsusi önəm verilir. Bu gün Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə tam müstəqil siyasət yürütməklə dünyanın bütün güc mərkəzləri ilə yuxarıda qeyd edilən əsaslarla əməkdaşlıq modelini yarada bilib. Mövcud siyasi xəttin nəticəsi isə bəllidir: beynəlxalq aləm üçün Azərbaycan tam müstəqil siyasət yürüdən, güclü iqtisadiyyata və orduya malik, regional və beynəlxalq sülhü dəstəkləyən, ölkələrin ərazi bütövlüyü və suverenliyinə hörmətlə yanaşan bir dövlətdir.

# İKİ ƏSRDİR HƏLLİNİ TAPMAYAN GƏRGİNLİK

**Əfqanıstan və Pakistan arasında sərhəd gərginliyi növbəti mərhələyə qədəm qoyub. Problemin kökündə Əfqanıstanın 1947-ci ildə müstəqil Pakistan yarandıqdan sonra iki ölkə arasındakı sərhəd xəttini tanımaması durur.**



**AZƏR NURİYEV**




Pakistanla Əfqanıstan arasında illərdir həllini tapmayan sərhəd problemi hərbi münaqişə həddinə yüksəlib. Əfqanıstanda "Taliban"ın idarə etdiyi hökumətin öz ərazisində "Təhrik-i Taliban Pakistan" (TTP) adlı terror təşkilatına dəstək verməsi sərhəd müharibəsinə gətirib çıxarıb. TTP Pakistanda puştun icmasını təmsil etdiyini iddia edir və ölkədə hakimiyyətə gəlmək uğrunda mübarizə aparır. Oktyabrın 9-da Pakistanın Əfqanıstanın Paktika vilayətinin Barmal qəzasında bazara hava zərbəsi və terrorçu təşkilatın liderlərini daşıyan zirehli avtomobilin pilotsuz təyyarə ilə məhv edilməsi ilə gərginlik güclənib. Ardınca da Kabil hava hücumuna görə məsuliyyəti İslamabadın üzərinə yükləyib və cavab addımları atıb. Daha sonra 11 oktyabr axşam saatlarından Əfqanıstan və Pakistan sərhədində silahlı toqquşmalar başlayıb. Artıq Pakistan Əfqanıstanın 19 sərhəd məntəqəsinin ələ keçirib.

### İSLAMABADDAN KABİLƏ SƏRT XƏBƏRDARLIQ

Əfqanıstanın hərəkətlərini tənqid edib onu təxribatda günahlandıran Baş nazir Şahbaz Şərif Kabili Pakistan ərazisində fəaliyyət göstərən terrorçu təşkilatları dəstəkləməkdə günahlandırıb. Bildirib ki, İslamabad Əfqanıstana dəfələrlə terrorçu elementlər haqqında məlumat verib. Bildirib ki, onlar Pakistana hücumlar üçün Əfqanıstan ərazisindən istifadə edirlər. "Əfqanıstan odla oynayır. Pakistan xalqı öz cəsur silahlı qüvvələri ilə birlikdə dəmir divar kimi dayanır. Əfqanıstan da Hindistana verilən cavab kimi layiqli cavab alacaq ki, Pakistana pis niyyətlə baxmağa daha cəsarət etməsin", - deyə Pakistan Daxili İşlər Nazirliyi bəyan edib. İslamabad rəsmən bəyan edib ki, Əfqanıstan tərəfinin hücumu nəticəsində 23 hərbçisi həlak olub, 29 nəfər isə yaralanıb. Nazirlik qarşı tərəfin itkilərinin sayının 200-dən çox olduğunu açıqlayıb. Bundan başqa, 21 mövqedə müvəqqəti nəzarətin təmin olunduğu bildirilib. Son duruma gəldikdə, hazırda Səudiyyə Ərəbistanı və Qətərin çağırışları fonunda bölgədə sabitlik yaranıb. Pakistan sərhəddə fövqəladə vəziyyət rejimini saxlayır.

### BAŞI BƏLALI DURAND XƏTTİ

Məlumat üçün qeyd edək ki, "Taliban" Əfqanıstanda hakimiyyətə gəldikdən sonra Pakistanla münasibətlərdə gərginlik yaşanır. Halbuki, vaxtilə "Taliban"ın yaranmasında məhz Pakistanın rolu olub. Məlumat üçün bildirək ki, 1947-ci ildən, müstəqil Pakistan yarandıqdan sonra Kabil iki ölkə arasındakı sərhəd xəttini tanımır. Bundan əvvəl "Taliban" hərəkatının yaratdığı müvəqqəti Əfqanıstan hökumətində xarici işlər nazirinin müavini olan Şer Məhəmməd Abbas Stanikzayi bəyan etmişdi ki, Əfqanıstan və Pakistan arasında 1893-cü il Durand xətti əsasında çəkilmiş sərhəd "xəyali xətt"dir. "Biz heç bir halda xəyali Durand xəttini rəsmi sərhəd hesab etmirik və keçmişdə heç bir əfqan onu sərhəd hesab etməyib", - deyə nazir müavini bildirmişdi. Durand xətti boyunca tez-tez silahlı insidentlər, qaçaqmalçılıq və nəzarət uğrunda qarşıdurmalar yaşanır. 2005-ci ilin sentyabrında pakistanlılar bildirdilər ki, mücahidlərin və narkotik alverçilərinin qanunsuz keçidinin qarşısını almaq üçün Əfqanıstanla sərhəd boyunca 2400 kilometr baryer tikməyə başlayacaqlar. Pakistanın keçmiş prezidenti Pərviz Müşərrəf isə sərhədi minalamağı təklif etmişdi. 2009-cu ildə pakistanlılar yenidən bu baryeri tikmək üçün işə başlamağa qərar verdilər. Amma maliyyələşmə olmadığına görə sərhəd məntəqəsinin yalnız 35 kilometrini hasarlamağı bacardılar.



Bütövlükdə Əfqanıstanla Pakistan arasında lokal silahlı toqquşmalar böyük müharibəyə səbəb olmasa da, bölgədə gərginlik ocağı yaradır. Əslində isə baş verənlər böyük güclər arasında geosiyasi mübarizənin təzahürü kimi qiymətləndirilir.



## ÇİNİN UĞURSUZ VASİTƏÇİLİK CƏHDİ

Pakistan-Əfqanıstan (Taliban) gərginliyi ən çox Çini narahat edir. Çünki Çinin həm Pakistana, həm də Əfqanıstana yatırımları mövcuddur. Pekin sülhməramlı rolunu oynamağa çalışır. Lakin üçtərəfli görüşlərə baxmayaraq, Pekinin vəziyyətə əhəmiyyətli təsir göstərmək imkanları məhdud olaraq qalır.

Hindistanın roluna gəldikdə, münaqişə günlərində "Taliban"ın xarici işlər naziri Əmir Xan Muttaki Delhidə səfərdə olub. Hindistanda Əfqanıstanın səfirliyin fəaliyyəti bərpa edilib. Səfər altı gün davam edib və nazir burada bəzi iddialarla çıxış edib. Bildirib ki, İslamabadla sülhün tərəfdarıdırlar, lakin lazım gələrsə, öz təhlükəsizliklərini qorumağa hazırdırlar: "Biz Pakistanla sıfır gərginlik və sülh münasibətləri istəyirik. Amma münasibətlər düzgün qurulmayıbsa, biz təhlükəsizliyin necə təmin olunacağını da bilirik".

### TRAMP TƏRƏFLƏRƏ GÖZLƏMƏYİ MƏSLƏHƏT GÖRÜB

Beynəlxalq ictimaiyyətin reaksiyasına gəldikdə, İran Əfqanıstan və Pakistanı təmkinli olmağa çağırıb və iki ölkə arasında sabitliyin bütün region üçün vacib olduğunu vurğulayıb. Bu yaxınlarda Pakistanla qarşılıqlı müdafiə müqaviləsi imzalayan Səudiyyə Ərəbistanı da tərəfləri dialoqa çağırıb.

"Eşitdim ki, hazırda Pakistan və Əfqanıstan arasında müharibə gedir. Mən dedim ki, onlar bir az gözləsinlər, hələ ki, onlarla məşğul ola bilmirəm", - bu sözləri isə ABŞ Prezidenti Donald Tramp deyib.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# “OXUMAQDAN HEÇ VAXT USANMAYIN”

Cahangir Məmmədli: “Kitab bilik, düşüncə və təcrübənin əsas mənbəyidir. Oxumaq insanı həm zənginləşdirir, həm də gələcəyə hazır edir. Telefon heç vaxt kitabın yerini verə bilməz. Sizin inkişafınız kitabdadır”.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az














“Bakıda XX əsrin ortalarında Landau adlı böyük bir şəxsiyyət yetişib. O, orta məktəbi bitirdikdən sonra Moskvaya gedib, fizika üzrə təhsil alıb və universiteti bitirib. Daha sonra akademik adını qazanıb, Nobel mükafatına layiq görülüb. Landau hər dəfə auditoriyaya daxil olanda tələbələrinə belə müraciət edərmiş: “Əziz tələbələr, gəlin tanış olaq. 31-ci kurs tələbəsi, akademik Landau”. Yəni, 31 ildir akademik olsa da, o, hələ də özünü tələbə kimi hiss edirmiş. İndi isə mən də sizin qarşınızda dayanmışam və deyirəm: “Salam, əziz şagirdlər! Gəlin tanış olaq. 61-ci kurs tələbəsi, professor Cahangir Məmmədli”.

Bakı Şəhəri üzrə Təhsil İdarəsi ilə “Kaspi” qəzetinin birgə reallaşdırdığı “Məktəbdə” layihəsinin qonağı Bakı Dövlət Universitetinin Milli mətbuat tarixi kafedrasının müdiri, professor Cahangir Məmmədli 21 nömrəli tam orta ümumtəhsil məktəbinin şagirdlərini belə salamlayır.

### “ONLARIN QƏHRƏMANLIQLARINI UNUTMAYIN”

Professor doğulub boya-başa çatdığı Ağdamın Novruzlu kəndindən başlayan həyat hekayəsini paylaşaraq, şagirdlərə yalnız bilik deyil, həm də həyatın mənası, məqsədi və səbrin gücü barədə tövsiyələr verib: “Mən yetim böyümüşəm. Şəhid ailələrini dərindən anlayıram, çünki onların yaşadıqlarını öz həyatımda yaşamışam. Atam 1942-ci ildə Vətən müharibəsinə gedib və geri qayıtmayıb. Bu gün 83 yaşım var və o yetimliyi hələ də hiss edirəm. Ən böyük və ən müqəddəs söz “şəhid” sözüdür. “Şəhid” anlayışı elə ucalıqda dayanır ki, bu söz insanın canını Vətənə fəda etməsinin rəmzinə çevrilib. Şuşanın qayalarına dırmaşan o igidlər sizdən sadəcə 2-3 yaş böyük idilər. O oğullarımız Vətən uğrunda canlarından keçdilər, onların qəhrəmanlıqlarını yaşınız neçə olsa da, unutmayın”.

### “60 İLDİR BURADAYAM, AMMA ŞƏHƏRLİ OLA BİLMƏDİM”

Professor çıxışında mikro və makro vətən anlayışına da toxunub: “Hər kəsin bir mikro vətəni, bir də makro vətəni var. Hansı kənddə doğulursansa, o kənd sənin üçün mikro vətən, bütöv Azərbaycan isə makro vətəndir. Mənim mikro vətənim Ağdam düşmənin tapdağı altında idi. Mən kənd adamıyam, 60 ildən çoxdur ki, şəhərdəyəm, amma şəhər insanına çevrilə bilmədim. Mənim Ağdamımı Prezident İlham Əliyevin rəhbərliyi ilə sizin kimi gənclər xilas etdi. Biz bu gün onların sayəsində bütöv Azərbaycan deyirik”.

### “İNKİŞAFINIZ KİTABDADIR”

“Səsiniz universitetlərdən gəlsin”, - deyib professor şagirdlərə. O, müəllimlərinin onun həyatındakı rolundan danışaraq, məktəblilərə kitab oxumağı nəsihət edib: “Kitab bilik, düşüncə və təcrübənin əsas mənbəyidir. Oxumaq insanı həm zənginləşdirir, həm də gələcəyə hazır edir. Telefon heç vaxt kitabın yerini verə bilməz. Sizin inkişafınız kitabdadır. Oxumaqdan, kitabdan usanmayın”.

Professor bildirib ki, özü humanitar fakültədə çalışsa da, dəqiq elmlərin təbliğinə böyük önəm verir: “Lirika və fizikanın fərqini bilmək vacibdir. Şeir və ədəbiyyat lirikadır, fizika isə dəqiq elmdir. Dünya dəyişir, internet və süni intellekt dövrüdür. Bunların hamısı riyazi düşüncə və məntiq üzərində qurulub. Ona görə dəqiq elmləri öyrənin. Güclü mütəxəssis olmaq üçün yaxşı nitq də vacibdir, bunu isə ədəbiyyat oxumaqla qazana bilərsiniz. Oxuduğunuz, gördüyünüz hər şeyə tənqidi yanaşın və düşünün - düz yazılıb, yoxsa yox. Harada işləyirsinizsə işləyin, birinci amalınız vətəndaşlıq olsun”.

“Müəllimlərinizin həyatınızdakı rolunu necə qiymətləndirirsiniz” sualı Cahangir Məmmədlini təsirləndirib və “həyatda nə qazanmışamsa, hamısını müəllimlərimə borcluyam” deyib: “Xüsusilə də, orta məktəb müəllimlərimə. Beş universitet də bitirsəniz, universitet sizə orta məktəbin verdiyini verə bilməz”.



Fotolar: Rüfət Mikayılov/Global Photostock

### “BÜTÜN UĞURLARIMI ŞİRMƏMMƏD MÜƏLLİMƏ BORCLUYAM”



Professor əlavə edib ki, onun həyat müəllimi Şirməmməd Hüseynov olub. “Bu gün elmi-pedaqoji və insanlıq məkanında nəyim varsa, Şirməmməd müəllimə borcluyam” deyib: “Universitetdə hiss etdik ki, çox ciddi və sərt adamdır, oxumağa tənbəllik edən tələbənin “dərsini” elə verərdi ki, o tələbə tənbəlliyi birdəfəlik unudardı. O qədər təmiz və obyektiv müəllim idi ki, ondan heç kim heç vaxt tələbəyə güzəşt xahişi etməzdi. O qədər savadlı və o qədər səviyyəli idi ki, ondan öyrəndiyin heç vaxt yadından çıxmaz və bütün həyatın boyu bu bilgilər sənin köməyin olar. Belə bir müəllim dörd ilin tələbəliyindən sonra mənim talismanım oldu, məni özünün yaratdığı jurnalistika fakültəsində saxladı. Sərt adam idi, amma göründə ki, adamda nə isə var, onu inkişaf etdirirdi. Dövlət imtahanı verəndə birinci suala cavab verdim və məni saxladı. Sonra katibəyə tapşırdı protokola yazsın ki, bu tələbəni universitetdə saxlayıram. Yazan xanım dedi ki, müəllim, protokolda belə bölmə yoxdur. O isə cavabında, “yaz deyirəmsə, yaz”, - dedi. O gündən universitetdə işləyirəm”.

## “BU, MƏNİM HƏYATDA ALDIĞIM ƏN BÖYÜK DƏRSDİR”

Professor sonda həyatda aldığı ən böyük dərsi də məktəblilərlə bölüşüb: “Orta məktəbdə, altıncı sinifdə oxuyarkən bir yazı yazmışdım. Qış vaxtı bir qoca kişinin hər gün odun yardığını görür, təsirlənirdim. Ən azı 65 yaşı var idi, amma soyuq qış günlərində odun doğrayırdı. Həmin vaxt bir məqalə yazdım və başlığını da “Məktəbin direktoru qoca kişiyə odun yardırır” qoydum. Məqalə dərhal çap olunmuşdu. Direktor məni otağına çağırdı və dedi ki, bu məqaləni sən yazmısan? Xəcalət çəkirdim və bəli dedim. Mənə dedi ki, sənin fakta münasibətin budurmu? Yazmısan, amma bu kişinin burada nə işlə məşğul olduğunu bilmirsən. Onun vəzifəsi budur və burada maaş alır. İşləməsə, maaş almazdı. Qapıdan xəcalətlə çıxarkən, direktor məni yenidən geri çağırdı və dedi ki, amma üslubun çox xoşuma gəldi. Səndən deyəsən jurnalist olacaq, yazmağı heç vaxt saxlama. Bu, mənim həyatda aldığım ən böyük dərsdir”.

# FERMERLƏR İŞÇİ TAPA BİLMİRLƏR



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az





**Kənd təsərrüfatında sahələrdə çalışan işçilərə ödənilən nağd vəsaitin yuxarı həddi qaldırılıb. Bununla belə, fermerlərin bir çoxu işçi çatışmazlığından şikayətçidir. Hətta sahələrdə əməkçi miqrantları işlədənlər də var.**

"Nağdsız hesablaşmalar haqqında" qanuna dəyişiklik edilir. Məsələ Milli Məclisin plenar iclasında müzakirə olunub. Dəyişikliyə əsasən, kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı mülki hüquqi xarakterli müqavilələr əsasında mövsümi işlərə cəlb edilən fiziki şəxslər üçün nağd qaydada ödənilən məbləğ 50 faiz artırılaraq 20 manatdan 30 manata qaldırılır. Ümumiyyətlə, son vaxtlar fermerlər muzdlu işçi cəlb etməkdə problemlərlə üzləşirlər. Tez-tez bu barədə onların şikayətlərini eşidirik. Bəs yeni qaydalardan sonra bu problem öz həllini tapacaqmı?

### "FERMERİN QAZANCI MƏHSULDAN ASILIDIR"

Fermer Rafət Abbasovun sözlərinə görə, əkin sahələri çox olduğundan son illərdə mövsümi işçi tapmaq problemi mövcuddur: "İşçi tapılmır" sözü düzgün deyil. Çünki işçi var. Sadəcə, əkin çox olduğundan yetəri qədər işçi olmaması problemi yaşayırıq. Cənub bölgəsində 40 mindən çox insan sahələrdə işləyir. İş çoxaldığı üçün işçi çatışmır. Həmçinin əvvəllər kəndlərdə əhali sayı çox olardı. Hər ailədə 10-dan yuxarı ailə üzvü vardı. İndi isə hər ailədən maksimum bir və ya iki nəfər gəlir. Amma bunun səbəbi pul deyil".

R.Abbasov bildirdi ki, fermerin işçiyə verəcəyi məbləği qaydalar yox, məhsuldarlıq müəyyənləşdirir: "İşçinin maya dəyəri olur. Fermer də istəyər ki, işçisinə yaxşı pul ödəsin. Amma fermerin də qazancı məhsuldan asılıdır. Elə il ola bilər ki, fermer yaxşı qazansın. Elə il də olar ki, məhsuldarlıq azalar. Bu zaman fermer xeyir götürə bilmirsə, işçiyə 30 manatı necə verəcək? Məcburdur borca, xərcə girsin və işçinin pulunu ödəsin".



**Foto:** Səbinə Şabıyeva- Global Photostock

### "FERMERLƏR VAR Kİ, MƏHSULU SAHƏDƏ QALIR..."

Aqrar ekspert Eldar Hüseynov isə düşünür ki, bəzi bölgələrdə bu sahədə problem olmasa da, bəzi regionlarda işçi tapılmır: "Şimal bölgəmizdə işçi qıtlığı mövcuddur. Mil-Muğan zonasında işçi var. Amma pambıq əkinləri zamanı işçilər gəlmək istəmirlər. Qərb zonasında da işçi yoxdur. Çünki işçilər alma, fındıq kimi yüngül işlərə gedirlər. Kartof əkən işçilər də məbləği çox istəyirlər. Pomidorda da günü 30 manata işçi tapmaq çox çətindir. Salyan istiqamətində Pakistandan gələn işçiləri çalışdırırlar. Özbəkistandan da işçi gətirilməsi gözləniləndir".

E.Hüseynovun fikrincə, işçilərin olmaması kənd təsərrüfatına, məhsuldarlığa çox pis təsir edir: "Elə fermerlər var ki, məhsulu sahədə qalır, yığmağa işçi tapılmır. İşçilər briqadalar şəklindədir. Briqadalarla da qışda əlaqə yaratmaq lazımdır ki, mövsümə hazır olsunlar".

### "30 MANATA İŞÇİ TAPMAQ OLMUR"

Ekspertin sözlərinə görə, hazırda insanlar sahələrdə heç günü 30 manata da işləmək istəmirlər: "Fermerə heç kim diktə edə bilməz ki, işçinin maaşını qaldır. Nazirlər Kabineti qərarı indi versə də, kənd təsərrüfatında işçilər bir ildir ki, günü 30 manata işləyirlər. Hətta heç günü 30 manata da işçi tapmaq olmur. Bu qərar vəziyyəti dəyişə bilməz. Məsələn, işçi briqadaları iş tapmasalar, boş qalsalar 15 manata da olsa, gəlib işləyəcəklər. Fermerə deməyəcəklər ki, 30 manatdan aşağı işləmirəm. Hər şey iş yükündən asılıdır".



Eldar Hüseynov

## "FERMERLƏRİMİZ ƏL ƏMƏYİNDƏN İMTİNA ETMƏLİDİRLƏR"

E.Hüseynov bu məsələnin həllini əl əməyindən imtina etməkdə görür: "Əvvəllər köhnə aqreqatlardan istifadə olunurdusa, son iki ildə İtaliya sistemlərinə keçid edilib. Yeni əkin texnikalarından istifadə olunur. Yonca biçimi üçün yeni aqreqatlar gətirilir. Tək əlac əl əməyini azaltmaqdır. Elə sistemlər tətbiq olunmalıdır ki, əl əməyi azalsın. Məsələn, Avropa ölkələrində işçi əməyindən demək olar ki, istifadə olunmur. Kənd təsərrüfatı üçün xüsusi texnikalar mövcuddur. Çuğundur, turpu özü sərbəst əkən, yığan texnologiyalar kəşf olunub. Artıq insan əməyinə ehtiyac qalmır. Maşın toxumu səpir, torpağı hazırlayır, məhsul yetişəndə də yığır. Sadəcə o texnologiyaları idarə etməyə bilikli şəxslər lazımdır. Bir neçə adam hektarlarla ərazidə iş görə bilir. Biz də bu sistemlərə keçid etməliyik. Düşünürəm ki, gələcəkdə bizdə də fermerlər məcbur olub belə texnologiyalardan istifadə edəcəklər".



Cəfər İbrahimli

### "YENİ MEXANİZMLƏR DÜŞÜNÜLMƏLİDİR"

İqtisadçı Cəfər İbrahimli də düşünür ki, bu sahədə yeniliklər edilməsinə ehtiyac var: "Əvvəl muzdlu işçilərə günü 20 manat ödənilirdi. Bundan sonra bu məbləğ 30 manata qaldırılır. Yaqin gündəlik 20 manat muzdlu işçiləri qane etmədiyindən fermerlər tərəfindən təşəbbüs qaldırılıb. Bunun sayəsində ödəniş məbləği 30 manat təyin olunub. Amma mən işçi çatışmazlığı olduğu qənaətində deyiləm. Çünki ixtisaslaşmış işçi qrupları mövcuddur. İnsanlar qruplaşaraq özlərinə briqadalar yaradır və gündəlik işləri görə bilirlər. Düşünürəm ki, fermerin 10 gündən bir fərqli işçilər cəlb etməsi, mövsümi olaraq 20-30 nəfərlə müqavilə bağlaması, bu müqavilələri banka təqdim etmək, vəsaitin nağdlaşdırılması və vətəndaşlara paylanması çox da işlək bir mexanizm deyil. Ailə təsərrüfatı olanlar, orta fermer təsərrüfatları onsuz da bu kimi imkanlardan istifadə etmirlər. Amma hər bir halda kənd təsərrüfatında operativlik yaratmaq, fermerlərin problemini ortadan qaldırmaq üçün yeni mexanizmlər düşünülə bilər".

Körpələrdə genetik xəstəlikləri aşkarlamaq üçün ölkəyə yeni testlər gətiriləcək

# GENETİK TESTLƏRLƏ BAĞLI MÜHÜM QƏRAR

Əvvəllər yalnız imkanlı ailələrin uşaqları üçün şübhəli hallarda xaricdə müayinələr aparılır və diaqnoz təsdiq olunurdu. Maddi imkanları məhdud olan valideynlərin uşaqlarında isə bu cür şübhələr olsa belə, onların genetik xəstəliklərini təsdiq etmək mümkün deyildi. İndi vəziyyət fərqlidir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az



Azərbaycana körpələrdə genetik xəstəlikləri aşkarlamaq üçün yeni testlər gətiriləcək. Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) məlumatına görə, ana və uşaqların sağlamlığının yaxşılaşdırılması və uşaqların icbari dispanserizasiyadan keçirilməsi ilə bağlı tədbirlər çərçivəsində ölkəyə neonatal skrininq testləri idxal olunacaq. Artıq 325 min ədəd müxtəlif adda test sifariş edilib. Maraqlıdır, ümumiyyətlə, ölkədə uşaqlarda genetik xəstəliklərin vaxtında aşkarlanması ilə bağlı durum necədir? Testlərin gətirilməsi, tətbiqi ana və uşaqların sağlamlığına hansı faydaları gətirəcək?

**"BEŞ ƏSAS İRSİ-GENETİK XƏSTƏLİK AŞKARLANIR"**

TƏBİB-dən bildirildi ki, bu testlərin ölkəmizdə tətbiqinin məqsədi yenidoğulmuşlarda irsi xəstəliklərin aşkarlanması və müalicəsi, əlilliyin profilaktikası, ağır klinik fəsadların qarşısının alınması ilə körpə və uşaq ölümünün azaldılmasına nail olmaqdır: "Neonatal skrininq testlərindən olan topuq testi geniş araşdırma tələb edən müayinə üsuludur. Pozitiv nəticə olan yenidoğulmuşlar qan, sidik, hormonal və digər bir sıra müayinələrə cəlb olunmalıdır. Nəticəyə uyğun olaraq, aşkar edilən xəstəlik təsdiq və ya inkar olunmalıdır. Neonatal skrininqlər vasitəsilə fenilketonuriya, qalaktozemiya, adrenogenital sindrom, kistik fibroz, anadangəlmə hipotireoz kimi beş əsas irsi-genetik xəstəlik aşkarlanır". Qurumun məlumatına görə, nenonatal skrininqlər zamanı nəticələr pozitiv olarsa, yenidoğulmuşdan ikinci dəfə test ödənişsiz götürülür: "2022-ci ildən icbari tibbi sığorta hesabına topuq testləri yalnız bir mərkəzdə - Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunda, 2023-cü ildən etibarən isə həm də Yeni Klinikada icra olunmağa başlayıb. Daban testinin nəticəsi pozitiv çıxan yenidoğulmuşların müayinə və müalicəsi, habelə müalicə olunan pasiyentlərin reyestrinin aparılması Respublika Pediatriya Mərkəzində həyata keçirilir. Xəstəliyin vaxtında aşkar olunması müalicənin erkən başlamasına və xəstəliklərin yarada biləcəyi qalıcı fəsadların qarşısının alınmasına xidmət edir".

## "Bu sahədə ciddi çətinliklər var idi"

Nərimanov Uşaq Yoluxucu Xəstəliklər Xəstəxanasının baş həkimi, tibb üzrə fəlsəfə doktoru Zenfira Mürsəlova deyir ki, uzun illər Azərbaycanda genetik xəstəliklərin erkən aşkarlanması sahəsində ciddi çətinliklər mövcud olub: "Hazırda vəziyyət tamamilə dəyişib. Yeni doğulanların skrininq məsələləri həll olunub və tez-tez rast gələnən beş əsas xəstəliyin - adrenogenital sindrom, qalaktozemiya, fenilketonuriya, kistik fibroz və anadangəlmə hipotireoz aşkarlanması artıq mümkündür. Neonatal skrininq nəticələrinə əsasən, uşaqların genetik xəstəliklə doğulub-doğul-madığı müəyyənləşdirilir və onların sağlamlığının idarə olunması üçün öncədən planlar hazırlanır. Skrininq nəticələri pozitiv çıxan uşaqların valideynləri ilə mütəxəssislər birbaşa əlaqə saxlayır, xəstəliyin mövcudluğu təsdiq olunduqda onları qeydiyyata alır, ambulator və zəruri hallarda stasionar müalicə təmin edilir".

**"İMKANLI AİLƏLƏRİN UŞAQLARI MÜAYİNƏ EDİLİRDİ..."**

Mütəxəssisin sözlərinə görə, əvvəllər yalnız imkanlı ailələrin uşaqları üçün şübhəli hallarda xaricdə müayinələr aparılır və diaqnoz təsdiq olunurdu. Maddi imkanları məhdud olan valideynlərin uşaqlarında isə belə şübhələr olsa belə, onların genetik xəstəliklərini təsdiq etmək mümkün deyildi: "İndi isə vəziyyət fərqlidir. Məsələn, kistik fibroz kimi xəstəliklər neonatal skrininq vasitəsilə aşkarlanır. Pozitiv nəticə göstərən uşaqlar qeydiyyata alınır. Daban testləri artıq icbari tibbi sığorta çərçivəsində həyata keçirilir, bu da bütün yeni doğulmuş uşaqların erkən diaqnostikası üçün imkan yaradır".

## Genetik testlər bahalı olduğundan...



Zenfira Mürsəlova

Həmsöhbətimiz əlavə edir ki, hazırda dövlət neonatal skrininq testlərini icbari tibbi sığorta çərçivəsində qarşılasa da, skrininqə daxil olmayan digər genetik xəstəliklərin aşkarlanması hələ ki, dövlət tərəfindən maliyyələşdirilmir: "Çoxsaylı genetik xəstəliklər var ki, onlar yalnız klinik şübhə yarandıqda müayinə olunur. Təəssüf ki, bu genetik testlər bahalı olduğuna görə dövlət tərəfindən qarşılanmır".

**"QOHUM EVLİLİKLƏRİNDƏ EHTİMAL DAHA YÜKSƏKDİR"**

Həkim-genetik Həmidə Abbasova deyir ki, genetik xəstəliklər nəsildən-nəslə ötürüldüyü üçün qohum evliliklərində belə uşaqların doğulma ehtimalı daha yüksəkdir: "Azərbaycanda qohum evliliyinin 60%-dən yuxarı olduğunu nəzərə alsaq, skrininq proqramının ölkəmiz üçün nə qədər vacib olduğu məlum olur. Skrininq çərçivəsində aşkar olunan xəstəliklərin vaxtında aparılan müalicəsi uşaq əlilliyi və ölümünün qarşısının alınmasında başlıca rol oynayır. Yeni testlər sayəsində biz genetik xəstəlikləri daha erkən mərhələdə aşkarlaya biləcəyik. Bu da əlilliyin qarşısının alınmasına, xəstələrin həyat keyfiyyətinin yaxşılaşdırılmasına və dövlətin sosial yükünün azalmasına mühüm töhfə verəcək. Bu baxımdan, sağlam gələcək naminə dövlətimiz tərəfindən atılan bu addım çox sevindirici və təqdirəlayiqdir".

# TİKİNTİ MATERİALLARININ BİLİNMƏYƏN ZƏRƏRLƏRİ

Tikinti materialları ilə bağlı yeni qaydalar hazırlanır. Ekspertlər düşünürlər ki, bu məmulatlar orqanizmə mənfi təsir etməyən ekoloji təmiz materiallardan hazırlanmalıdır. Yeni standartların qəbulu bu sahədəki mövcud çatışmazlıqların həllində mühüm rol oynaya bilər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



Azərbaycan hökuməti tikinti sahəsində qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində yeni tədbirlər paketi hazırlayır. Yeni mexanizmlər tikintiyə nəzarət və təhlükəsizlik standartlarının dəqiqləşdirilməsini nəzərdə tutur. Tikinti ərazilərində ekoloji və radioloji risklərin qiymətləndirilməsi və idarə olunması üçün hüquqi baza yaradılacaq. Sağlamlığa zərərli tikinti materiallarının istifadəsinə məhdudiyyət qoyulacaq. Maraqlıdır, sağlamlığa zərərli tikinti materialları hansılardır?

### EVİMİZDƏKİ TƏHLÜKƏ

İnşaat üzrə ekspert Elnur Azadov bildirdi ki, zərərli inşaat materiallarından ən təhlükəlisi istifadəsi dayandırılan asbestdir: "Asbestdən şiferlər istehsal olunurdu. Son 5-10 il ərzində artıq onu dəmir texnologiyalar əvəz edir. Bu səbəbdən asbestdən hazırlanan şiferlərin istifadəsi sıfıra enib. Hazırda bu məhsuldan çox az həcmdə satılır. İkinci təhlükəli məhsul asbestdən hazırlanan borulardır. Həmin borular davamlı olur. Adətən açıq havada istifadə edilmir. Əsasən torpağın altında olur. Onların satışı da hazırda çox azdır. Çünki istifadəsi məhdudlaşdırılıb. Artıq daha yüngül, ucuz başa gələn materiallardan istifadə olunur".

E.Azadovun sözlərinə görə, bu kimi zərərli materiallardan hər birimiz evimizdə istifadə edirik: "Təhlükəli məhsullardan biri də mebel istehsalında tanıdığımız formaldehitdir. Ondan mətbəx mebeli və digər mebellərdə yapışdırıcı kimi istifadə edirlər. Mebel açıq şəkildə qalanda onun tozu zərərli sayılır. Amma mebelin daxilində olduqda insan sağlamlığına o qədər də zərər vurmur. Plastik və laminat materiallar da təhlükəlidir. Çünki onlar birbaşa insan orqanizmi ilə təmasdadır. Məsələn, ucuz laminatın istehsalında bəzi komponentlər olur ki, onlar qapalı, havalanmayan məkanlarda zərərli maddələr buraxırlar. Bu da insan orqanizmi üçün təhlükəlidir".

Ekspertin fikrincə, bu sahə dərindən təhlil edilməli, klinik testlər, elmi tədqiqatlar aparılmalıdır. Hər bir inşaat materialının təhlükəsizlik təlimatı olur. Araşdırdıqdan sonra seçim etmək daha məsləhətdir.

## Yeni tədbirlər planının hazırlanması zərurəti

Təhlükəsizlik üzrə ekspert Orxan Musayev də düşünür ki, ölkəmizdə tikinti sahəsində qanunvericiliyin təkmilləşdirilməsi üzrə yeni tədbirlər planının hazırlanması zəruri və təqdirəlayiq addımdır: "Dünya təcrübəsi də göstərir ki, bəzi materiallar insan sağlamlığı üçün ciddi risklər daşıyır. Buna misal olaraq asbesti, qurğuşun qarışıqlı boyaları, formaldehit və digər üzvü birləşmələr buraxan ucuz yapışqan və plastikləri göstərə bilərik. Asbest ağciyər xərçəngi riski yaradır. Qurğuşun tərkibli boyalar isə uşaqlarda sinir sisteminin zədələnməsinə səbəb olur. Formaldehit və uçucu üzvü maddələr isə astma, allergiya, xroniki bronxit və hətta xərçəng yaradır. Həmçinin radon qazı buraxan bəzi təbii daşlar və yanğın zamanı toksik tüstü buraxan keyfiyyətsiz izolyasiya materialları da təhlükəli hesab olunur. Ona görə burada məsələ onların təkcə texniki uyğunsuzluğu deyil. Həmçinin insan sağlamlığı üçün ciddi təsirlərini nəzərə almalıyıq".



Orxan Musayev

## Dünya təcrübəsi

O.Musayev bildirir ki, Avropa ittifaqı, ABŞ, Yaponiya və digər ölkələrdə zərərli materiallara illərdir məhdudiyyətlər tətbiq olunur. Məsələn, Avropada asbest tamamilə qadağan edilib. ABŞ-də qurğuşun qarışıqlı boyalardan tamamilə imtina olunub. Asiya ölkələrində isə formaldehid səviyyəsinə ciddi nəzarət var: "Azərbaycanda da bu qaydaların tətbiqi həm insanların sağlamlığını qoruyacaq, həm də tikinti sektorunun dayanıqlılığı və inkişafına şərait yaradacaq".

Mütəxəssisin fikrincə, tikinti materialı alarkən bəzi məsələlərə diqqət etməliyik: "İstifadə olunan materiallar sertifikatlı olmalı və beynəlxalq standartlara uyğunluğu nəzərə alınmalıdır. Mənşəyi məlum olmayan materiallardan imtina edilməlidir. Məhsulun İSO və digər standartlara uyğunluğunu təsdiq edən sənəd olmalıdır. Materialın üzərində havaya daha az zərərli maddə buraxması ilə bağlı yazı qeyd edilməlidir. Yanğına davamlılıq da nəzərə alınmalıdır".

### "QORUYUCU VASİTƏLƏRDƏN İSTİFADƏ EDİN"

Tibb məsələləri üzrə ekspert, həkim-terapevt Rasif Bağırov da təsdiq etdi ki, müxtəlif tikinti materiallarından düzgün istifadə etmədikdə onlar insan orqanizmində müəyyən xəstəliklər yarada bilir: "Bəzən elə daşlar olur ki, onlar gözə görünməyən radon qazı buraxır. Yaxud ev tikən zaman torpaqdan həmin qaz yüksəlir, evlərə toplanır. Beləliklə, xərçəng və digər ağır xəstəliklərin yaranmasına səbəb olur". Həkimin sözlərinə görə, bədənə birbaşa təmas edən materiallar daha təhlükəlidir: "Misal olaraq laminatı göstərə bilərik. Onlarla uzun müddət kontaktda olanda dəri xəstəlikləri, dermatitlər əmələ gəlir. Qurğuşun tərkibli boyalar var ki, onlardan istifadə edən zaman lazımi qoruyucu vasitələrdən istifadə olunmayanda bədəndə toplanır. Bu zaman ürək-qan damar sisteminin pozulmasına, böyrək xəstəliklərinə və müxtəlif xərçəng xəstəliklərinə yol açır".

R.Bağırov tikinti materialları ilə işləyən və təmasda olan insanlara müəyyən tövsiyələr verdi: "Özünü xəstəlikdən qorumaq üçün tikinti sahəsində işləyən insanlar maskalardan və yaxud tənəffüs sistemini qoruyan xüsusi cihazlardan, müəyyən qoruyucu paltarlar istifadə etməlidir. Tikinti materialları alanda lisenziyası olub-olmadığını soruşmaq lazımdır. Həmçinin materiallar orqanizmə mənfi təsir etməyən ekoloji təmiz materiallardan hazırlanmalıdır ki, gələcəkdə həm orada işləyən, həm də yaşayacaq insanlar üçün heç bir sağlamlıq problemi yaranmasın".



Rasif Bağırov

ÜÇ ƏSRİN QƏZETİ Kaspi


# BAKU TV VƏ “ÖZBƏKİSTAN 24” ƏMƏKDAŞLIQ MEMORANDUMU İMZALAYIB

**Memorandum qardaş ölkələr olan Azərbaycan və Özbəkistan arasında media və mədəni əməkdaşlığın inkişafına yeni nəfəs gətirəcək. Dostluq və qardaşlıq münasibətlərimizin informasiya müstəvisində daha da möhkəmlənməsinə töhfə verəcək.**




Azərbaycanın aparıcı televiziya kanallarından biri olan Baku TV və Özbəkistanın nüfuzlu televiziya kanalı “Özbəkistan 24” arasında 2025-ci il 17 oktyabr tarixində Daşkənd şəhərində əməkdaşlıq memorandumu imzalanıb.

### MEDİA ƏMƏKDAŞLIĞININ İNKİŞAFINDA YENİ MƏRHƏLƏ

Sənədi Baku TV-nin direktoru Ramin Cəfərov və “Özbəkistan 24” kanalının rəhbəri Məmədəmin Səfərov imzalayıblar. İmzalanma mərasimində “Global Media Group”un İdarə Heyətinin üzvü Orxan Məmmədov və Azərbaycan Respublikasının Özbəkistan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Hüseyn Quliyev iştirak ediblər.

Səfir Hüseyn Quliyev qeyd edib ki, Azərbaycan və Özbəkistan arasında media əməkdaşlığı xalqlarımızın bir-birini daha yaxından tanımasına xidmət edir. Bu memorandum dostluq və qardaşlıq münasibətlərimizin informasiya müstəvisində daha da möhkəmlənməsinə töhfə verəcək.

Bu memorandum Azərbaycan və Özbəkistan arasında media əməkdaşlığının inkişafında yeni mərhələnin əsasını qoyur. Sənəd televiziya və informasiya sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsini, peşəkar təcrübə mübadiləsini, birgə layihələrin həyata keçirilməsini və informasiya dəstəyinin gücləndirilməsini nəzərdə tutur.

## İnformasiya mübadiləsinin sürəti artacaq

Tədbirdə çıxış edən Orxan Məmmədov bildirib: “Bu memorandum qardaş ölkələr arasında media və mədəni əməkdaşlığın inkişafına yeni nəfəs gətirəcək. Baku TV və “Özbəkistan 24” kimi nüfuzlu kanalların birgə fəaliyyəti həm xəbərin keyfiyyətini, həm də informasiya mübadiləsinin sürətini artıracaq. İnanırıq ki, bu əməkdaşlıq hər iki ölkənin informasiya məkanını daha da zənginləşdirəcək”.

2018-ci ildən fəaliyyət göstərən Baku TV, “Global Media Group”un tərkibinə daxil olan televiziya kanalıdır. Beş dildə xəbər istehsal edən kanal peyk, kabel və rəqəmsal platformalar vasitəsilə həm Azərbaycanda, həm də xaricdə geniş izləyici auditoriyasına malikdir.

Son illərdə sürətli inkişaf nümayiş etdirən Baku TV-nin videolarına 2024-cü ildə “YouTube” platformasında 1 milyard 168 milyondan çox baxış qeydə alınıb. Kanal fəaliyyəti boyunca beynəlxalq idarəetmə standartlarına əsaslanır və ISO 9001, ISO 14001 və ISO 45001 sertifikatlarına malikdir.

Müxtəlif maarifləndirici və ictimai əhəmiyyətli layihələri ilə seçilən Baku TV bu gün ölkənin ən çox izlənilən kanallarından biridir. Hazırda televiziyanın gündəlik, həftəlik və aylıq yayımlanan müxtəlif janrlarda 20-dən çox verilişi var.




# SOCAR şəhid və qazi övladları üçün tədbir keçirib

Vətən müharibəsində qazanılan Zəfərin beşinci ildönümü münasibətilə SOCAR-ın təşkilatçılığı, “Neftçi” və Türkiyənin “Galatasaray” Futbol klublarının tərəfdaşlığı ilə SOCAR-ın Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid və qazi olan əməkdaşlarının övladları üçün “Futbol günü” adlı tədbir keçirilib. “Report” xəbər verir ki, şəhid və qazı övladları əvvəlcə “Palms Sports” Futbol Mərkəzində olublar.

Burada uşaqlara “Neftçi” klubu haqqında ətraflı məlumat verilib və klubun tarixi ilə bağlı videosüjet nümayiş etdirilib.

Uşaqlar “Neftçi” klubunun A komandasının baş məşqçisi Samir Abbasov və futbolçular ilə görüşüb, onlarla xatirə şəkilləri çəkdiriblər. Onlar istirahət otağında futbolçularla birlikdə müxtəlif əyləncəli oyunlar oynayıblar.

A və B komandalarımız arasında keçirilən yoxlama oyununu izləyən uşaqlara “Neftçi” Peşəkar Futbol Klubunun adından xatirə hədiyyələri təqdim olunub.

Günün ikinci yarısında isə şəhid və qazi övladları SOCAR-ın Baş ofisində təşkil olunan tədbirdə iştirak ediblər.

Şəhid və qazi övladlarını salamlayan SOCAR-ın Sosial məsuliyyət Departamentinin rəisi Əsəd Məmmədov Azərbaycanda dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi şəhid və qazi övladlarına göstərilən diqqət və qayğıdan, bu siyasətə uyğun olaraq SOCAR tərəfindən görülən işlərdən bəhs edib.

Sonra uşaqlar “Galatasaray” klubunun futbolçularının şəhid və qazi övladlarına müraciətləri əsasında hazırlanmış xüsusi videoçarxı izləyiblər. Onlara “Galatasaray”ın formaları hədiyyə olunub.

# İQLİM RİSKLƏRİNİN MİQYASINDA KƏSKİN ARTIM

Bakıda III Azərbaycan Milli Şəhərsalma Forumu öz işinə başlayıb. Forum çərçivəsində müxtəlif mövzularda panel müzakirələr təşkil olunub. Ən maraqlı müzakirələrdən biri “İqlimə davamlı və sağlam şəhərlər” adlı panel sessiyasında qeydə alınıb.

BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) Davamlı Şəhər İnkişafı şöbəsinin rəhbəri Kurt Qarriqanın sözlərinə görə, BMT tədqiqatları göstərir ki, bəzi ölkələrdə iqlim siyasətləri ya zəif, ya da orta səviyyədə şəhər komponentinə malikdir. Lakin Azərbaycan bu baxımdan fərqlənir. Ölkə yerli səviyyədə həlləri milli məqsədlərə daxil etməklə “iqlim çempionu” statusunu qazanıb.

UNESCAP rəsmisi bildirib ki, iqlim dəyişikliyi ilə mübarizə yalnız qlobal siyasət deyil, həm də yerli və urban səviyyədə tədbirlərin həyata keçirilməsini tələb edir.

Ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva bildirib ki, Bakıda temperatur 36 dərəcəni keçdikdə ölüm göstəricilərində kəskin artım müşahidə olunur. Onun sözlərinə görə, paytaxtda havanın maksimum temperaturu ilə ölüm halları arasında birbaşa əlaqə müəyyən olunub: “İnsan sağlamlığı üçün komfort temperatur 24–28 dərəcədir. Temperatur 36 dərəcəni keçdikdə ölüm göstəricilərində kəskin artım müşahidə olunur. Bu səbəbdən erkən xəbərdarlıq sistemi risklərin azaldılmasında mühüm əhəmiyyət daşıyır”.



U.Tağıyeva bildirib ki, son on ildə Azərbaycanda iqlim risklərinin miqyası kəskin artıb. Onun sözlərinə görə, bu dövrdə daşqın hadisələrinin sayı 80 dəfədən çox, quraqlıqların davametmə müddəti isə 18 % artıb: “30 dərəcədən yüksək temperatur olan günlərin sayı altı dəfə, meşə yangınları beş dəfə, güclü küləklər (saniyədə 25 metrdən artıq sürətlə) 12 dəfə, intensiv yağıntı hadisələri isə altı dəfə çoxalıb”.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Tərанə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 2129
Tiraj: 2650
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# BAZARLARDA UÇOT DÖVRÜ

**Bazarlarda fəaliyyət göstərən təsərrüfat subyektləri ilə bağlı yeni tələblər qüvvəyə minib. Sahibkarlar bu yenilikləri həm hüquqi, həm də inzibatçılıq baxımından narahatlıqla qarşılayırlar. Ekspertlər isə başqa fikirdədirlər.**

SEVİNC ABBASOVA

Oktyabrın 1-dən bazarlarda fəaliyyət göstərən təsərrüfat subyektləri üçün yeni vergi və uçot tələbləri qüvvəyə minib. Yeni qaydalara əsasən, bazar mülkiyyətçiləri yalnız vergi orqanında uçota alınmış obyektləri icarəyə verə bilər. Eyni zamanda, obyektin girişində icarəçinin adı və VÖEN-i göstərilən informasiya yerləşdirilməlidir. Sahibkarlar bu yenilikləri həm hüquqi, həm də inzibatçılıq baxımından narahatlıqla qarşılayırlar. Bəs, görəsən, bazar mülkiyyətçiləri və icarədarlar yeni tələblərə necə uyğunlaşmalıdır? Maliyyə sanksiyaları hansı hallarda tətbiq olunur və sahibkarların hüquqi məsuliyyəti necə müəyyən edilir?



Foto: Rüfət Mikayılov /Global Photostock

### "VERGİ UÇOTU İNZİBATÇILIĞI GÜCLƏNDİRİR"

Vergi məsələləri üzrə ekspert Anar Bayramov bildirir ki, yeni qaydaların tətbiqi bazarlarda fəaliyyət göstərən obyektlərin rəsmi uçota alınmasını təmin etmək məqsədi daşıyır. O izah edir ki, burada maliyyə yükündən söhbət getmir, əsas məsələ inzibatçılığın təkmilləşdirilməsidir: "Vergi ödəyicisi fəaliyyət göstərdiyi vergi orqanında qeydiyyatdan keçməlidir. Bu, təsərrüfat subyektlərinin və ya obyektlərinin rəsmi uçotunun aparılması deməkdir. Bu addım vətəndaşın yaşadığı ünvanda qeydiyyata düşməsinə bənzəyir. Əvvəllər plazalarda və iri ticarət obyektlərində vergi ödəyiciləri faktiki olaraq fəaliyyət göstərsə də, uçota alınmırdılar. Bu isə vergi nəzarətini çətinləşdirirdi. İndi isə obyektləri icarəyə verən şəxslər, yəni bazar mülkiyyətçiləri, bu uçotun təmin olunmasına cavabdehdirlər. Bu yanaşma nəzarəti asanlaşdırır və vergi intizamını gücləndirir".

### DOQQUZ AYLIQ HAZIRLIQ MÜDDƏTİ

A.Bayramov əlavə edir ki, yeni dəyişikliklər ilin əvvəlində təsdiqlənsə də, prosesə hazırlıq üçün doqquz aylıq müddət nəzərdə tutulmuşdu: "Bu müddət ona görə verildi ki, sahibkarlar yeni qaydalara uyğunlaşsınlar. Reallıqda elə hallar olur ki, əvvəllər fəaliyyət göstərən vergi ödəyicisinin uçotu tamamlanmadığı üçün yeni icarədar həmin ünvanı rəsmi olaraq qeydiyyata sala bilmir. Əvvəlki vergi ödəyicisi də tapılmır. Bu, hazırda ən çox rast gəlinən problemlərdən biridir. Doqquz aylıq müddət məhz bu kimi problemlərin aradan qaldırılması üçün verilmişdi".

### İKİ MİNDƏN ALTI MİN MANATADƏK CƏRİMƏ

Ekspert bazarların ölçüsü və növü fərqinə də diqqət çəkir: "Adətən, bazar dedikdə el arasında "kolxoz bazarı" kimi bilinən yerlər anlaşılır. Əksinə, bu dəyişikliklər kənd təsərrüfatı məhsulları bazarları və kənd təsərrüfatı kooperativi bazarlarına aid deyil. Buraya aiddir iri ticarət mərkəzləri, plazalar, mallar, maşın bazarı və s. Onlar mütləq qanunvericiliyin tələblərinə əməl etməli, icarədarın vergi uçotu olmadan fəaliyyət göstərməsinə icazə verməməlidirlər. Əks halda maliyyə sanksiyaları tətbiq olunur. İlk dəfə pozuntu aşkar edilərsə, sanksiya 2000 manat, ikinci dəfə 4000 manat, üçüncü və daha çox hallarda isə 6000 manat təşkil edir".

Anar Bayramov vurğulayır ki, qaydaların tətbiqi sahibkar üçün əlavə vergi öhdəliyi yaratmır: "Məqsəd bazarlarda şəffaf və qanuni fəaliyyətin təmin olunmasıdır".

Rayon bazarlarına gəlincə, ekspert burada vəziyyətin bir qədər fərqli olduğunu deyir: "Yeni qaydalar əsasən mərkəzləşdirilmiş bazarlara tətbiq olunur. Amma bazarda geyim, elektronika və digər qeyri-kənd təsərrüfatı məhsullarının satışı ilə məşğul olan obyektlər varsa, mütləq yeni tələblərə uyğunlaşmalıdır".

## "İcarə haqları aşağı salınmalıdır"

Azərbaycan Dövlət İqtisad Universitetinin Beynəlxalq iqtisadiyyat kafedrasının dosenti Emin Qəriblinin fikrincə, hər bir sahibkarlıq subyekti mütləq vergi ödəməlidir. "Bizdə maraqlı bir vəziyyət mövcuddur. Bəzi ticarət mərkəzlərində fəaliyyət göstərən sahibkarlar yalnız icarə haqqı ödəyirlər, dövlət büdcəsinə isə ya heç bir ödəniş həyata keçirilmir, ya da formal ödəniş olunur. Həmin ödənişləri yalnız ticarət mərkəzləri edir. Mən hesab edirəm ki, bu, böyük miqyasda vergidən yayınmaya yol açır. Hər bir ticarətlə məşğul olan şəxs vergi ödəməlidir, lakin ticarət mərkəzlərinin rəhbərləri də vəziyyəti nəzərə almalıdır. Bir çox hallarda vergi öhdəliyi olmadığı üçün ticarət mərkəzləri sahibkarlardan daha yüksək icarə haqları tələb edirlər. Əgər bu vergi yükü sahibkarlara şamil olunacaqsa, ticarət mərkəzləri bunu nəzərə almalı və icarə haqlarını aşağı salmalıdır. Sahibkarlar da bu məsələdə haqlarını tələb etməlidir". O, iri ticarət mərkəzlərində qeydiyyat aparılmadığı üçün orada neçə sahibkarın fəaliyyət göstərdiyini müəyyən etməyin çətin olduğunu vurğulayır. "Bu sahədə kifayət qədər sahibkar fəaliyyət göstərir və onlar dövlət büdcəsini əhəmiyyətli gəlirlə təmin edə bilərlər. Əslində bu addım sahibkarları qorxutmamalıdır. Sadəcə, bizdə vergi mədəniyyəti tam formalaşmadığından insanlar uçota düşməyin əlavə problemlərə yol açacağını düşünürlər", – Qəribli qeyd edib.

## YENİ QAYDALARIN MÜSBƏT TƏRƏFLƏRİ

İqtisadçı yeni qaydaların sahibkarlar üçün müsbət tərəflərini də izah edir: "Uçot apararkən həm dövriyyə müəyyən edilir, həm də şəffaflıq təmin olunur. Digər tərəfdən, sahibkarların hüquqlarının qorunması baxımından müsbət təsirləri olacaq. Vergi ödəyicisi olanda həm müvafiq dövlət qurumlarından, həm də icarədardan haqlarını tələb edə biləcəklər. Ola bilsin, bazarda müəyyən ələnmə də gedəcək. Daha çevik, müasir tələblərə cavab verən sahibkarlar bazarda qalacaq. Müasir sahibkarlıq bu kimi addımlardan qorxmamalıdır".




### TİCARƏTÇİLƏR ÜÇÜN HÜQUQİ TƏMİNAT YARADIR

İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin sədri, iqtisad üzrə fəlsəfə doktoru Ruslan Atakişiyev deyir ki, əslində bu dəyişikliklər ticarətçilər üçün hüquqi təminat yaradır: "Ümumiyyətlə, bazarlarda işləyən ticarətçilərdən bazar nəzarətçiləri tərəfindən icarə haqqı alınırdı. Sadəcə olaraq oktyabrın 1-dən bazar müdiriyyəti onların qeydiyyatını aparmalıdır. Belə olduğu halda həmin subyektlərə imkan yaranır ki, sabah bazarda hansısa haqsızlıqla üzləşərkən hüquqlarını müdafiə edə bilsinlər. Bu, bazarda fəaliyyət göstərən subyektlərin müdafiəsi baxımından önəmlidir. Digər tərəfdən, gələcəkdə bazarların özləri tərəfindən vergiyə cəlbetmə işi daha asanlaşacaq. Lakin ola bilər ki, bazar müdiriyyəti tərəfindən müəyyən ödənişlər artırılsın. Bu halda isə həmin artım istər-istəməz məhsulların qiymətinə təsir göstərə bilər".

İKİNCİ QARABAĞ MÜHARİBƏSİ QAZİSİ CAVİD AŞİROVUN DÖYÜŞ YOLU

# "BİZ VƏTƏNİMİZİ – EVİMİZİ QORUYURDUQ"

Prezident İlham Əliyevin imzaladığı sərəncamlarla qazi C.Aşirovun Vətən qarşısındakı xidmətləri yüksək qiymətləndirilib. O, "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən müharibəsi iştirakçısı" medallarına layiq görülüb.

ƏRTURAN İSMAYIL

"Mən müharibəni yalnız filmlərdən izləmişdim. Onun insanlara yaşatdığı ağrı-acını, faciəni təsəvvür etmirdim. Bizdən əvvəlki nəsillər ötən əsrin 90-cı illərində gözlənilmədən savaşa cəlb olunduqları, ölkənin ərazi bütövlüyünü qoruduqları kimi, mən və hərbçi yoldaşlarım da anidən döyüşlərin iştirakçısına çevrilmişdik. Biz Vətənimizi - evimizi qoruyurduq. Bir zamanlar filmlərdə gördüyümüz döyüş səhnələrini canlı-canlı yaşayırdıq". Bu fikirlər III qrup Vətən müharibəsi əlili Cavid Hüseyn oğlu Aşirova məxsusdur. O, 1999-cu ildə Bakıda anadan olub, 2016-cı ildə 53 saylı tam orta məktəbi bitirib. 2016-2020-ci illərdə Bakı Dövlət Universitetində turizm və hotelçilik ixtisası üzrə ali təhsil alıb. 2020-ci ilin iyul ayında həqiqi hərbi xidmətə yollanıb. Ağcabədi rayonundakı "N" saylı hərbi hissənin artilleriya divizionunda topçu kimi xidmətə başlayıb.

### DÜŞMƏN AVİASİYASININ ATƏŞİ NƏTİCƏSİNDƏ YARALANIB

C.Aşirov hərbi xidmətinin üçüncü ayında ordumuzun əks-hücum əməliyyatlarına cəlb olunub. O, digər topçu əsgərlərlə birlikdə Füzuli, Cəbrayıl, Xocavənd, Qubadlı istiqamətlərində irəliləyən hərbçilərimizə artilleriya dəstəyi verib, düşmənin mühəndis-istehkam qurğularının, yüksəklikdə yerləşən döyüş mövqelərinin darmadağın edilməsində şücaət göstərib. Oktyabrın 20-də düşmən aviasiyasının atəşi nəticəsində yaralanıb. Bununla da onun döyüş yolu sona çatıb. Əvvəlcə səhra hospitalında, Füzuli Rayon Mərkəzi Xəstəxanasında, ardınca Akademik Mirqasımov adına Respublika Klinik Xəstəxanasında müalicə olunub və ordudan tərxis edilib.

C.Aşirov o anları belə xatırlayır: "Vətən müharibəsi başlayan gündən bizim hərbi hissə döyüşlərə cəlb olundu. Həmin dövrdə bizim hərbçilər hər gün irəliləyirdi deyə, zaman-zaman biz də mövqelərimizi dəyişir, piyada birləşmələrə atəş dəstəyi vermək üçün daha irəlidə yeni mövqelər seçməli olurduq. Beləcə Füzuli, Cəbrayıl, Xocavənd, Qubadlı istiqamətlərində xeyli irəlilədik. Sonuncu dəfə Qubadlının Balasoltanlı kəndində yeni mövqelərdə möhkəmlənmişdik. Elə bu vaxt səmada pilotsuz uçuş aparatı gördük. Düşmən yerimizi müəyyən etmişdi. Cəld şəkildə mövqeləri dəyişməyə, ərazidən uzaqlaşmağa çalışdıq. Lakin düşmənin güclü atəşi altında bunu tam başa çatdıra bilmirdik. Minaatan mərmiləri yağış kimi başımıza yağırdı. Mərmi qəlpələrindən yayınmaq üçün xüsusi xəndəklərdə, daldanacaqlarda gözləyirdik ki, şəxsi heyəti, silah-sursatı qoruya bilək. Artilleriya atəşinin ardınca düşmənin hərbi aviasiyası səmada göründü. Bizə tərəf irəliləyən qırıcı təyyarə gövdəsindən üzərimizə kasetli bomba atdı. Qəlpələr yanımdakı əsgər yoldaşım Səyyad Ağahüseynlini, mayor Sadiq Həsənovu ağır yaraladı və onlar şəhidlik zirvəsinə ucaldılar. Mənim isə hər iki ayağımı, dizlərimi, kürəyimi qəlpə yaralamışdı. Sağ ayağımın diz qapağı tamamilə parçalanmışdı. Əsgər yoldaşlarım olmasaydı, ilkin yardım göstərilməsəydi qanaxmadan mən də həyatımı itirə bilərdim".

### "DÖYÜŞ YOLDAŞLARIM ƏSL QƏHRƏMANLIQ NÜMAYİŞ ETDİRDİLƏR"

C.Aşirov döyüş meydanından onu çıxaran əsgərlərin əsl qəhrəmanlıq göstərdiklərini bildirdi: "Təsəvvür edin ki, hər yan odun-alovun içindədir. Ətrafda davamlı olaraq minaatan mərmisi partlayır, müxtəlif istiqamətlərə qəlpə səpələyir. Altı əsgər yoldaşım yaralandığımı görüb qorxub-çəkinmədən məni ayaqlarımdan, bədənimdən, qollarımdan tutub kənara daşıyırdılar. Elə bu vaxt düşmən təyyarəsinin təkrar bizə tərəf istiqamətləndiyini gördüm. Əsgər yoldaşlarıma əvvəl qışqıraraq, hədə-qorxu gələrək, sonra yalvararaq dedim ki, məni atın yerə, özünüz daldanacağa çəkilin, yoxsa mənə görə siz də həyatınızı itirəcək, yaxud yaralanacaqsınız. Onların heç biri buna məhəl qoymadı. Hətta qırıcı təyyarə ikinci dəfə gövdəsindən kasetli bomba atmağına, qanadlarındakı raketdən istifadə etməyinə baxmayaraq, döyüş yoldaşlarım qorxmazlıq, əsl qəhrəmanlıq nümayiş etdirdilər, yaralı silahdaşlarını döyüş meydanında qoymadılar. Həyatımı onlara borcluyam".

### "MÜHARİBƏDƏ QƏHRƏMANLIQ AN MƏSƏLƏSİDİR"

Həmsöhbətimiz deyir ki, müharibədə qəhrəmanlıq an məsələsidir: "Bizim batareyada arıq, çəlimsiz, sakit bir əsgər yoldaşımız var idi. Müharibə günlərində onun daha çox narahatlıq yaşadığını, gərgin olduğunu hiss edirdik. Amma mən yaralananda onun necə qorxuya qalib gəldiyini, özünü itirmədiyini müşahidə etdim. Bunu həmin əsgər məni yaralı halda döyüş meydanından çıxarıb deyə söyləmirəm. Həmin an mərmi qəlpələri yanımda sipər alan bir zabit və əsgəri həyatdan məhrum etmişdi, mən yaralıydım, ətraf qan, od-alov içində idi. Amma o, özünü itirmədən başımın üstündə dik dayanmışdı və daldanacaqdakı digər əsgərləri köməyə səsləyirdi. Sona qədər yanımdan getmədi. Halbuki həlak olması an məsələsi idi".

Qeyd edək ki, Prezident İlham Əliyevin imzaladığı sərəncamlarla C.Aşirovun Vətən qarşısındakı xidmətləri yüksək qiymətləndirilib. O, "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən müharibəsi iştirakçısı" medallarına layiq görülüb. Hazırda dövlət qurumlarından birində çalışır.



# BİNALAR DAHA TEZ QOCALMAYACAQ

Yeni qaydalara görə, artıq hündür mərtəbəli binaların istismar müddəti 100 il olacaq. Ekspertlərin fikrincə, bu müddət yalnız müasir texnologiyalar, keyfiyyətli materiallar və effektiv nəzarət sistemi tətbiq olunduğu halda mümkündür.





ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

**Artıq binaların istismar müddəti 100 il olacaq**

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyası "Yüksək binalar və komplekslər. Layihələndirmə normaları"nı təsdiqləyib. Qərara əsasən, binaların layihələndirilməsi layihə tapşırığı üzrə yerinə yetirilməlidir. Belə ki, layihələndirilən binalar yüksək məsuliyyət səviyyəsinə aiddir və konstruksiyalarının hesablama-istismar müddəti 100 ildən az olmayaraq qəbul edilməlidir. Bu o deməkdir ki, artıq binaların istismar müddəti 100 il olacaq. Bəs hazırda Bakıda mövcud olan binaların ömrü nə qədərdir? Yeni qanun necə tətbiq olunacaq?

### "BİNALARA NƏZARƏT DAHA DA GÜCLƏNƏCƏK"

Əmlak eksperti Ramil Osmanlının sözlərinə görə, bu qanundan sonra binalara nəzarət daha da güclənəcək: "Əslində deyə bilmərik ki, əvvəllər belə qaydalar ümumiyyətlə olmayıb. Çoxmərtəbəli binalarla bağlı normativ qaydalar həmişə olub. Sadəcə indi yüksək binalar və komplekslər üçün layihələndirmə normalarının bilavasitə yüksək məsuliyyət zonası daxilində qəbul edilməsi, müəyyən əmsalların tətbiq olunması, istismar müddətinin minimum 100 ilə qaldırılması onu deməyə əsas verir ki, bundan sonra bu istiqamətdə nəzarət daha da güclənəcək".

R.Osmanlının fikrincə, əvvəlki dövrdə inşa olunan binaların, xüsusilə də sovet dövründən qalmış köhnə tikililərin bir çoxunun istismar müddəti artıq başa çatıb: "Onlarda müəyyən bərkitmə işlərinin aparılmasına baxmayaraq, faktiki olaraq istismar müddətini başa vurublar. Çünki ötən əsrin əvvəllərində inşa olunublar, müəyyən tikinti standartlarının tələblərinə cavab vermirlər".

### "Binalar zaman-zaman təmir olunmalıdır"

Ekspert düşünür ki, binaların tez sıradan çıxmasının səbəbi düzgün qulluq edilməməsidir: "2000-ci ildən bəri inşa olunmuş yeni tikililərlə bağlı da müxtəlif zamanlarda monitorinqlər həyata keçirilir. Onların keyfiyyəti, dayanıqlılığı istiqamətində müzakirələr aparılır. Həmin binaların içində keyfiyyətsiz olanlar da var. Amma əksəriyyəti, xüsusilə monolit beton binalar keyfiyyətlidir. Sadəcə istismar qaydaları, binaların saxlanması ilə bağlı işlərin qaydasında olmadığını, standartlara cavab vermədiyini söyləmək olar. Çünki çoxmənzilli binaların idarə olunması sahə mülkiyyətçilərinin nəzarətindədir. Dövlət nəzarətində deyil. Bir çox hallarda bina bir neçə il istismar olunduqdan sonra mənzil tikinti kooperativləri müəyyən qurğu və avadanlıqların köhnəl-diyini nəzərə alaraq həmin binaları tərk edirlər. Binalar zaman-zaman təmir olunmalıdır. Orada müəyyən fasad işləri, qurğuların vaxtında dəyişdirilməsi həyata keçirilməlidir. Amma bir çox hallarda bu işlər standartdan kənar aparılır və yaxud heç aparılmır. Bu səbəbdən 15 il bundan öncə inşa olunmuş bina elə görünür ki, elə bil 100 ildir mövcuddur".

R.Osmanlı yeni qərar əsasında ediləcək digər dəyişikliklərdən də bəhs etdi: "Tikinti normaları ilə bağlı qaydaların tətbiq olunmasından sonra binalarda keyfiyyət göstəricilərinin daha da artırılması, eyni zamanda tikilən binaların ərazi planlaşması zamanı qeyd olunan tələblərə əməl olunması, yaşıllıq zonalarının salınması, ərazi üzrə müvafiq infrastrukturun yaradılması məsələlərində də ciddi nəzarət olacaq. Hətta 9 hektardan artıq sahəsi olan binalar üçün də ayrıca tələblər var. Bu səbəbdən düşünürəm ki, qanunlar bu sahədə keyfiyyəti bir qədər də artıracaq".

Əmlak və inşaat məsələləri üzrə ekspert Elnur Azadov isə bildirdi ki, sovet dövründə inşa olunmuş binalar artıq istismara yararlı deyil. O səbəbdən həmin binalarda yaşamaq təhlükəlidir: "Xruşşovka"lar 60-cı illərdə tikilməyə başladı. Bu binaların istismar müddəti 40 il üçün nəzərdə tutulmuşdu. Lakin artıq 65 ilə yaxındır ki, bu binalar istismar olunur. 70-ci illərdə beton özüllü binalar inşa olundu. Bunlar 9 mərtəbəli fransız layihələridir. Bakıda mikrorayonların çoxu bu binalardır. Onların isə istismar müddəti 100 ilə kimi nəzərdə tutulub. Lakin burada düzgün istismar da çox vacibdir. Binalar vaxtaşırı əsaslı təmir olunarsa, onların istismar müddəti 100 il ola bilər. Bəzi mikrorayonlarda bu binaların düzgün istismar olunmaması nəticəsində onlar 50 il xidmət göstərdi. Həmin binalar yaşayış üçün qismən yararlı, qismən isə təhlükəli hesab olunur".



Ramil Osmanlı



Elnur Azadov

### "Tikinti şirkətləri bina ilə bağlı məsuliyyət daşımalıdır"

E.Azadovun fikrincə, tikinti şirkətləri istismardan sonra da bina ilə bağlı məsuliyyət daşısalar, binaların ömrü daha uzun ola bilər: "Fikrimcə, 2000-ci ildən sonra inşa olunmuş 2500-ə yaxın yeni çoxmənzilli binalarda ciddi bir qüsur yoxdur. 2007-ci ildən sonra istismara qəbul olunmuş binaların da texniki, qurğu konstruksiya hissələrində fəsad mövcud deyil. Həmin binalar kifayət qədər dayanıqlıdır. Zamanla binaların üzərindən suvaq qatları qopur, düşür. Bu kimi qüsurlar olmasa, binaların digər daşıyıcı konstruksi-yalarında ciddi problem yoxdur. O səbəbdən binaların aşınma dərəcəsinə uyğun olaraq vaxtaşırı suvaq və digər hissələrin bərpası lazımdır. Bu kimi hallar nəzərə alınaraq, tikinti şirkətləri bina ilə bağlı məsuliyyət daşımalıdır".

### "KOMMUNİKASİYALARIN KEYFİYYƏTİ ARTA BİLƏR"

Memar, urbanist Səbinə Abbasova da düşünür ki, yeni qanunun uğurlu olması mümkündür: "Yeni normalar və qaydalar əgər yeni tikililərdə ciddi şəkildə tətbiq olunsa, şəhərin memarlıq keyfiyyətinə və ətraf infrastrukturun yaxşılaşmasına müsbət təsir göstərə bilər. Bu, xüsusilə də son illərdə qəbul edilmiş tikinti sıxlığına dair qanunla birlikdə həyata keçirilsə, daha balanslı şəhər inkişafına şərait yarada bilər. Yəni, yeni qanun və qaydalar ilə binaların konstruksiyaları və kommunikasiyaların keyfiyyətinin artırılması mümkündür".

# DANİMARKANIN MƏDƏNİ FENOMENİNƏ ÇEVRİLƏN ŞƏHƏR

**35 hektar ərazisi, cəmi 850 sakini olan Kristianiya orta əsr kəndini xatırladır. Burada avtomobillərin hərəkəti qadağandır. Keçən əsrin 70-ci illərinin əvvəllərində hippilər, radikallar, kiçik cinayətkarlar, şəhər psixləri və digər şübhəli şəxslərin buraya axını başlayıb.**

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

"Azad Kristianiya" şəhəri Kopenhagendə özünəməxsus cazibəsi olan və Danimarkanın mədəni fenomeninə çevrilmiş məşhur turizm məkanıdır. Kristianiya - "ölkə daxilində ölkə" adlanan, paytaxtın Kristianşavn rayonunda bir kommunadır. 35 hektar ərazidə yerləşən anklavın cəmi 850 sakini var, onlardan 100-ə yaxını uşaqdır. Kristianiya şəhərin mərkəzində gizlənmiş orta əsr kəndini xatırladır: köhnə taxta evlər, avtomobillərin yoxluğu, adamsız dar küçələr... Hətta yerli hakimiyyət orqanları da bu subkultural adaya təslim olub və Kristianiyaya yarımmuxtar status veriblər.

Turizm bələdçilərinin Kristianiya rayonunu gəzmək istəyən turistlər üçün təşkil etdikləri "Kristianiya - hippilərin doğulduğu yer" ekskursiyasına mən də qoşuluram.

## BİR VAXTLAR NARKOTİK TİCARƏTİNİN MƏRKƏZİ OLUB

"Azad şəhər"in sığınacağına çevrilən məhəllə kifayət qədər təcrid olunub: içəri girməyə yalnız iki giriş imkan verir. Girişlərdən biri simvolik olaraq öz qülləsi və panoramik spiral pilləkəni olan unikal orta əsr məbədi olan Xilaskar Məsih Kilsəsi tərəfindən qorunur. Digər girişdəki "Diqqət - Aİ ərazisini tərk edirsiniz" işarəsi başqa ölkəyə daxil olduğunuzu xatırladır."Kristianiya bərabərlik və qardaşlıq haqqında sözlərin sadəcə söz olmadığı bir yerdir. Dünyadakı bütün hippilər belə azad həyat, onun sakinlərinin idarə etdiyi bir şəhər arzusundadırlar, lakin yalnız Danimarkada bu arzu reallığa çevrilib", - deyə bələdçi məlumat verir.

İcmanın ərazisi Danimarka hökuməti tərəfindən idarə olunmur və buna görə də 1970-ci illərdə Kopenhagenin bütün narkotik biznesi buraya köçüb. O vaxtdan bəri şəhərin bu hissəsi narkotik yuvası kimi tanınıb. Burada küçə yeməkləri kimi narkotik vasitələri də hər addımda satılıb.

## QURUCU ATASI VƏ İDEOLOJİ İLHAMÇISI TANINMIŞ ANARXİSTDİR

Şəhərin tarixi maraqlıdır: hər şey 1971-ci ildə bir qrup gəncin Kral Kristian dövründə tikilmiş köhnə kazarmaları əhatə edən taxta hasarı sökməsi ilə başlayıb. Yerin adı da buradan götürülüb.

Kristianiyanın qurucu atası və ideoloji ilhamçısı Avropada tanınmış anarxist Yakob Lüdviqsen idi. Onun ərazisində "yeni dövlət"in yaranmasına töhfə vermək istəyən hər bir şəxs rəğbətlə qarşılanırdı. Buna görə də keçən əsrin 70-ci illərinin əvvəllərində hippilər, radikallar, xırda cinayətkarlar, şəhər psixləri və digər şübhəli şəxslərin bu əraziyə axını başlayır. Şəhər rəhbərliyi əvvəlcə buna göz yumur, çünki bir araya toplaşan bu rəngarəng kütlənin bir yerdə yaşaya biləcəyi onlarda sual doğurub. Ona görə də ilkin olaraq azad şəhər "sosial eksperiment" statusu alır.

80-ci illərin əvvəllərində Kristianiya ərazisində asayişi bərpa etmək qərarı verilir: "Narkotiklərə yox" deyərək, bütün heroin alverçiləri və aludəçilərini azad şəhərin ərazisindən qovmaq istəyirlər. Ancaq onlar Kristianiya ərazisini tərk etməkdən imtina edirlər. Sonra burada barrikadalar qurulur, vətəndaş müharibəsi başlayır. Nəhayət, sonunda ərazidə narkotiklərin satışına son qoyulur və ümumi yığıncaqda bir sıra qadağalar qəbul edilir: əraziyə narkotik vasitələr, silahlar, gülləkeçirməz jiletlər gətirmək olmaz. Həmçinin Kristianiyada avtomobil sürmək və bəzi küçələrdə foto və video çəkmək qadağandır.

## ÖZ QANUNLARI, ÖZ HÖKUMƏTLƏRİ VAR

Həqiqətən də, burada azad şəhərin bütün əlamətləri mövcuddur: Kristianiyanın öz qanunları, hökuməti, xəzinəsi və polisi var. Hətta bayrağı da. Kopenhagenlə əlaqə minimaldır - yalnız müntəzəm olaraq vergi ödəmək tələb olunur. Hazırda Kristianiyada mənzili nə almaq, nə də satmaq olar. Yeni gələnlərə yer ayrılır və hər biri ayda təxminən 1500 kron vergi ödəyir ki, bu da Danimarka standartlarına görə çox ucuzdur. Bu, Kristianiya sakinlərinin 1995-ci ildə Danimarka Müdafiə Nazirliyi ilə əldə etdikləri razılaşmadır. Vergilər yerli büdcəyə daxil olur. Pulun bir hissəsi birbaşa Danimarka xəzinəsinə gedir, qalanı isə şəhərin ehtiyaclarına xərclənir.

## UÇAN NƏLBƏKİ VƏ BANANA BƏNZƏYƏN EVLƏR

"Azad şəhər"in memarlığı öz yaradıcılığı və qeyri-adi icrası ilə heyran edir. Ərazisində vahid üslub yoxdur - hər kəs öz evini öz istədiyi kimi qurur. Bu səbəbdən burada ağac evi, uçan nəlbəki və banana bənzəyən evlər, köhnə pəncərələrdən düzəldilmiş tamamilə şüşə ev və digər maraqlı tikililəri görə bilərsiniz. Bütün tikililər qraffitilərlə bəzədilib.

Evlərdə artıq bir şey görməyəcəksiniz, onlar adətən minimalistdir. Sakinlər vəsaitləri məhdud olsa belə, bazarlarında təsadüfən alınan və ya zibilliklərdə tapılan əşyalardan gözəl interyerlər yarada bilirlər. Evlərdə nömrə yoxdur, sadəcə lövhələr var. Evlərin bəzilərində hələ də isti su yoxdur. Zərflərin üzərinə yazırlar: "Ağacın üstündəki evdən Riçarda", "Ayaqqabılar evindəki Matildaya". Bu, poçtalyon üçün kifayətdir.

## "KRİSTİANİYANI GÖR, SONRA ÖL!"

"Azad şəhər"də ətraf mühitin vəziyyətinə xüsusi yaşıl briqadalar nəzarət edir. Kommunanın ərazisində müxtəlif kafelər, sənətkarlıq mağazaları, musiqi klubları və s. fəaliyyət göstərir. Yerli restoranlar, kafelər və barlar həmişə doludur. Kophenagendə turistlər arasında hökm sürən "Kristianiyanı gör, sonra öl!" şüarı şəhərin qonaqlarını bu əraziyə cəlb edir.



# “MƏNFİ ROLLAR MƏNƏ DAHA DOĞMADIR”



Mirsənan Kazımlı: “Bəziləri birdən-birə hər şeyi dəyişmək istəyir. Elə bil on mərtəbəni bir nəfəsə qalxmaq istəyirlər. Böyük üslub dəyişiklikləri etməyə can atırlar. Amma aktyor da, tamaşaçı da bu cür radikal dəyişikliklərə həmişə hazır olmur”.

XANIM AYDIN

Teatr, səhnə, tamaşaçı alqışı həmişə başqa bir dünyanın işığı olub. O işıq insana ya verilir, ya verilmir. Müsahibimiz bu işıqla dünyaya gələn Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrının aktyoru Mirsənan Kazımlıdır.

### “MÜSBƏT OBRAZLARI ÇOX DA SEVMİRƏM”

**● Teatr sizin üçün nədir? Sənət, alın yazısı, missiya?**

● Teatr mənim üçün bir pəncərədir. Mən teatrdan kənarda yaşadığım gündəlik həyatdan daha çox səhnədə oluram. Səhnədə özümü daha azad hiss edirəm. Təbii ki, obrazın çərçivəsi daxilində. Bu səbəbdən müsbət obrazları çox da sevmirəm. Halbuki Gənc Tamaşaçılar Teatrında canlandırdığım rolların əksəriyyəti elə müsbət obrazlardır. Amma mənfi rollar mənə daha doğmadır. O rollarda özümü daha rahat ifadə edə bilirəm. Çünki o obrazlar daha detallı və mürəkkəb olur. Aktyorun özünü göstərməsi üçün imkanlar yaradır.

**● Zaman da dəyişir, tamaşaçı da. Sizcə, teatr da bu dəyişikliyə uyğunlaşmalıdırmı?**

● Teatrın klassik ruhu var, ona toxunmaq olmaz. Amma indiki dövr üçün uzun tamaşaların tərəfdarı deyiləm. Əgər bir tamaşa 3-4 saat davam edirsə, bu, tamaşaçı üçün çox yorucudur. Müasir tamaşaçını zalda oturtmaq və diqqətdə saxlamaq çətindir. Çünki o daim telefonla məşğuldur, sosial şəbəkələrə baxır, zənglər gəlir, fikri dağılır. Zaman dəyişib – sürət tələb edən bir dövrdəyik. Bu reallığı nəzərə almalıyıq. Məncə, müasir tamaşaların maksimal müddəti iki saat olmalıdır.

### “TEATR QAPIDAN BAŞLAYIR”

**● “Tamaşa asılqandan başlayır” fikri ilə razısınızmı?**

● Məncə, teatr qapıdan başlayır - mühafizəçidən, xadimədən... Mühafizəçi də, xadimə də teatrın bir parçası olmalıdır. Əgər “teatral” deyillərsə, onların salamı belə insana yad gəlir. Məsələn, əgər o adam mənə “çayxana üslubunda” salam verirsə, artıq əhvalım pozulur. Teatrın ab-havası birliyin içində yaranır.

**● Tamaşa bitəndən sonra nə baş verir?**

● Əgər tamaşa yaxşı alınıbsa, o zaman içində bir şirin yorğunluq yaranır. Səhnənin, alqışların ləzzəti başqadır. Tamaşaçının zalı tərk etməməsi, ayaq üstə alqışlaması – bu, aktyor üçün böyük xoşbəxtlikdir. Aktyor alqışın səmimiliyini hiss edir.

**● Uşaqlar üçün oynamaq asandır, yoxsa böyüklər üçün?**

● Hər ikisinin həm çətin, həm də gözəl tərəfləri var. Amma uşaqlar böyüklərdən fərqli olaraq, tamaşaya heç bir neqativ yüklə gəlmirlər. Safdırlar, təmizdirlər. Onlardan gələn enerji də tamam başqadır. Bu, tamaşa zamanı çox aydın hiss olunur. Amma çətin tərəfi də var: uşaqları sakitləşdirmək bəzən mümkün olmur. Bütün o səs-küyün içində sən səhnədə oynamağa davam etməli, onun diqqətini tamaşaya çəkməlisən.

### “YAXŞI REJİSSORLAR AZDIR”

**● Kefiniz olmayanda səhnəyə necə çıxırsınız?**

● Tamaşaçı bilet alıb gəlib. Sənin şəxsi problemin, kədərin, yorğunluğun varsa, onu teatrın qapısında qoymalısan. Səhnəyə yalnız aktyor olaraq çıxmalısan.

*Uşaqlar böyüklərdən fərqli olaraq, tamaşaya heç bir neqativ yüklə gəlmirlər. Safdırlar, təmizdirlər. Onlardan gələn enerji də tamam başqadır. Bu, tamaşa zamanı çox aydın hiss olunur.*





**● Sizcə, bu gün teatrda nə çatışmır?**

● Yaxşı rejissorlar azdır.

**● Niyə yeni nəsil yaxşı rejissorlar yetişmir?**

● Çünki bəziləri birdən-birə hər şeyi dəyişmək istəyir. Elə bil on mərtəbəni bir nəfəsə qalxmaq istəyirlər. Böyük üslub dəyişiklikləri etməyə can atırlar. Amma aktyor da, tamaşaçı da bu cür radikal dəyişikliklərə həmişə hazır olmur. Teatrın öz üslubu var. Mən şəxsən teatrların öz janrından kənara çıxaraq başqa üslubda tamaşalar təqdim etməsinin əleyhinəyəm. Hər teatr öz sahəsində inkişaf etməlidir.

**● Bəs klassikaya toxunmaq olarmı? Dekonstruksiyaya münasibətiniz necədir?**

● Teatrda klassik üslubu çox sevirəm. Amma rejissor və dramaturq ortaya yaxşı, əsaslandırılmış bir iş çıxaracaqlarsa – niyə də yox? Dekonstruksiya da mümkündür. Sadəcə, mən klassika ilə yeni üslubun qarışmasını o qədər də bəyənmirəm. Əgər sən etdiyini əsaslandıra bilirsənsə, yaxşı iş ortaya çıxar. Məsələn, xarici ölkələrdən birində “Romeo və Culyetta” tamaşasına baxmışdım. Orada bütün rolları oğlanlar oynayırdı. Tamaşanın sonuna qədər bu qəribə gəlir, amma finalda məlum olur ki, əslində hadisələr bir gəmidə baş verir. Matroslar əsəri oxuyub, öz aralarında səhnələşdiriblər. Bu ideya çox maraqlı idi.

Fotolar: Tapdıq Abdullayev /Global Photostock

## “Düşünmədən teatrı seçirəm”



**● Kamera, yoxsa canlı tamaşaçı?**

● Mən düşünmədən teatrı seçirəm. Amma bu yaxınlarda Elxan Cəfərovun Mirzə Qədim İrəvani haqqında çəkdiyi bədii-sənədli filmdə çəkildim. Orada İrəvaninin gəncliyini canlandırırdım. Düzdür, tam bədii film deyildi, amma çəkiliş prosesi mənə böyük zövq verdi. Nə qədər yorulsam da, işin içində dincəlirdim, zövq alırdım.

**● Səhnədə çıxılmaz vəziyyət yaşadığınız olub?**

● Əlbəttə, çox olub. 15-16 yaşım vardı, Bəhram Osmanovun “Gəncə qapıları” tamaşasında oynayırdım. Sol qolum qırılmışdı, amma tamaşaya gəlmişdim, gipsi geyimin altında gizlətmişdim. Bir səhnədə atam məni bellə vurur və mən uçuruma yıxılıram. Tərəf müqabilimə dedim ki, “möhkəm vurma, qolum sınıb.” Amma tamaşanın ab-havasına o qədər girmişdik ki... Elə vurdu ki, sınmış qolumun üstünə yıxıldım. Qışqırmamaq üçün dişlərimi sıxdım, özümü birtəhər kulisə atdım. Sonra elə qışqırdım ki, hamı səhnə arxasına yığışdı.

**● Teatrda hədəfiniz nədir?**

● Vicdanlı aktyor olaraq qalmaq. Bir də yaşım hansı rola uyğundursa, onu oynamaq. Məsələn, 20 yaşımda 45, 45 yaşımda 20 yaşlı bir adamı oynamaq istəmirəm. Bundan başqa, hədəflərim daim dəyişir. Bu gün bir obrazla maraqlanıram, sabah başqa bir obrazla. Amma hər bir rolun öz zamanı və yaşı var.

**● Şəxsi xoşbəxtliyinizi də teatrda tapdınız...**

● Bəli. Teatr mənim üçün xoşbəxtlik idi, amma indi xoşbəxtliyim birə-beş artıb...

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
18 OKTYABR ŞƏNBƏ 2025
www.kaspi.az




# ŞAHMATÇILARIMIZIN GÜMÜŞƏ APARAN YOLU

**Batumidəki Avropa çempionatı Azərbaycan şahmatının həmişəki kimi qitənin ən güclü mərkəzlərindən biri olduğunu təsdiqlədi. Xüsusilə kişilərdən ibarət və kifayət qədər yenilənən komandamızın nəticəsi gələcəyə ümidlə baxmağa imkan verir.**

Azərbaycan şahmatı uzun illərdir dünyanın və Avropanın ən güclü məktəblərindən biri kimi tanınır. Fərdi və komanda yarışlarında qazanılmış saysız uğurlar ölkəmizi şahmatın xəritəsində aparıcı mərkəzlərdən birinə çevirib. Dörd dəfə Avropa çempionu adını qazanan kişilərdən ibarət milli komandamız bu dəfə Gürcüstanın Batumi şəhərində keçirilən Avropa komanda çempionatında daha bir uğurlu nəticəyə imza atdı. Gərgin mübarizə şəraitində keçən yarışda Azərbaycan millisi qitənin ən güclü rəqibləri ilə qarşılaşdı və turniri ikinci pillədə başa vuraraq gümüş medala sahib çıxdı. Bu nəticə bir tərəfdən şahmatçılarımızın sabitliyinin və oyun mədəniyyətinin göstəricisidirsə, digər tərəfdən son turda əldən verilən çempionluq ümidlərinin yaratdığı müəyyən təəssüf hissini də özündə daşıyır. Bununla belə, Azərbaycan yenə də Avropa şahmatının zirvəsində yer aldığını sübut etdi.

### DOQQUZ TUR DAVAM EDƏN STABİL ÇIXIŞ

Doqquz tur ərzində komandamız stabil çıxışı ilə diqqət çəkdi. “İti zəka sahiblərimiz” yalnız son görüşdə məğlubiyyətlə üzləşdilər. Turnirin birinci turunda millimiz Slovakiya üzərində 3:1 hesablı inamlı qələbə qazanaraq yarışa uğurlu start verdi. İkinci turda güclü Çexiya yığması ilə qarşılaşma gərgin mübarizə şəraitində keçdi və 2:2 hesablı bərabərliklə nəticələnib. Bunun ardınca Azərbaycan şahmatçıları Polşa üzərində 2,5:1,5 hesablı qələbə ilə liderlər qrupuna yüksəldilər.

Dördüncü və beşinci turlarda müvafiq olaraq Niderland və Yunanıstanla oyunlar bərabərliklə (2:2) yekunlaşdı. Altıncı turda ən çox diqqət çəkən görüş baş tutdu - Azərbaycan millisi Ermənistan üzərində 2,5:1,5 hesablı qələbə qazanaraq həm idman, həm də simvolik baxımdan mühüm nəticə əldə etdi. Bu qələbə komandamızın motivasiyasını daha da artırdı.

Yeddinci turda Macarıstan yığması üzərində 3:1 hesablı inamlı qələbə Azərbaycanı zirvəyə bir qədər də yaxınlaşdırdı. Ardınca səkkizinci turda Ukrayna kimi güclü rəqibə 2,5:1,5 hesabı ilə qalib gələn millimiz son tura çempionluğa əsas namizəd kimi daxil oldu. Lakin həlledici - doqquzuncu turda Serbiya ilə qarşılaşmada 1:3 hesablı gözlənilməz məğlubiyyət millimizin çempionluq şanslarını əldən aldı. Bu nəticədən sonra Azərbaycan turniri ikinci yerdə tamamladı və gümüş medalla kifayətləndi. Ukraynanın çempion olduğu Avropa çempionatında Serbiya üçüncü yeri tutdu.

Ümumilikdə, komandamız 9 turda 5 qələbə, 3 bərabərlik və 1 məğlubiyyət qeydə alıb. Bu göstərici Azərbaycan şahmatının Avropada sabit və güclü mövqeyə sahib olduğunu bir daha təsdiqləyir. Hərçənd son turdakı nəticə müəyyən qədər təəssüf doğursa da, millimizin ümumi çıxışı yüksək qiymətə layiqdir.

### ELTAC SƏFƏRLİDƏN PARLAQ OYUN

Azərbaycan millisi Gürcüstana kapitan Teymur Rəcəbovun rəhbərliyi altında yollanmışdı. Komandamızın heyətində yer alan Şəhriyar Məmmədyarov, Rauf Məmmədov, Eltac Səfərli, Aydın Süleymanlı və Məhəmməd Muradlı yarış boyu ölkəmizin şahmatda qazandığı nüfuzu layiqincə qorudular. “İti zəka sahibləri” hər turda sərrast oyunu, strateji düşüncəsi və təmkinli çıxışı ilə diqqət mərkəzində olmağı bacardılar.

Millimizin hər üzvü öz növbəsində dəyərli xallar qazansa da, bu dəfə komandanın parlayan ulduzu Eltac Səfərli oldu. Üçüncü lövhədə çıxış edən qrossmeyster turnirin ən sabit və inamlı oyunçularından biri kimi seçildi. Yeddi qarşılaşmada masa arxasında əyləşən Eltac 3 qələbə və 4 heç-heçə ilə məğlubiyyətsiz nəticə göstərdi. O, təkcə öz lövhəsində rəqiblərini bir-birini geridə qoymaqla kifayətlənmədi, həm də turnirin ümumi mənzərəsində ən etibarlı şahmatçılardan biri kimi dəyərləndirildi. Bu performans Eltac Səfərlinin Avropa çempionatında üçüncü lövhə üzrə qızıl medal qazanması ilə nəticələndi. Eltacın parlaq oyunu bir daha göstərdi ki, Azərbaycan məktəbi yalnız böyük adlarla deyil, eyni zamanda, səssiz-sakit, amma çox güclü qrossmeysterləri ilə də Avropa səhnəsində sözünü deməyi bacarır.











## Qadın şahmatçıların uğursuzluğu

Gürcüstandakı Avropa çempionatında Azərbaycan qadın şahmat yığması da mübarizə apardı. Turnirin reytinq siyahısında dördüncü pillədə yer alan komandamızdan daha yüksək nəticə gözlənilirdi. Lakin bu dəfə qızlarımız potensiallarını tam ortaya qoya bilmədilər və yarışın yekun cədvəlində yalnız 10-cu yerdə qərarlaşdılar. Komandanın tərkibində artıq kifayət qədər tanınan və potensialına bələd olduğumuz şahmatçıların çoxluğu nəzərə alınarsa, bu nəticə müəyyən qədər gözlənilməz sayıla bilər. Buna baxmayaraq, fərdi çıxışlar arasında diqqətəlayiq performans da var idi. Dördüncü lövhədə çıxış edən Gülnar Məmmədova parlaq oyun nümayiş etdirərək 8 turda 6 qələbə qazandı və yüksək performansına görə lövhəsində üçüncü yeri tutdu. Qrossmeysterimiz bu nailiyyəti ilə bürünc medalla mükafatlandırıldı.

